البرهان في علامات مهدي اخر الزمان

أبو علي أفندي عبد الله الحنبلي العجاراي التركي

Mehdinin əlamətləri haqqında dəlillər

Müəllif: Əbu Əli Abdullah ibn Əbu Əfəndi əl Hənbəli əl Ucari

Ön söz

Həqiqətən həmd (şükür və tərif) yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Aləmlərə rəhmət olaraq göndərilən peyğəmbərimiz Muhəmmədə (sallallahu aleyhi va səlləm), ailəsinə və səhabələrin hamısına Allahın salamı və xeyir duası olsun.

Oxucuya təqdim olunan bu çalışma möhtərəm qardaşımız Əbu Əli Abdullahın (Əfəndi) bu sahədə rus dilində qələmə aldığı **"Достаточное о признаках появления Махди"** risaləsindən Azərbaycan dilinə çevrilmiş tərcümə işidir. Müəllifin də qeyd etdiyi kimi, bu sahədə təfsilatlı və mövzunu açıqlayan ədəbiyyata rast gəlmək çətindir. Bu səbəbdəndən də adı keçən çalışma Mehdilik və əlamətləri haqqında oxucuya konkret dəlillər təqdim edir. Haqqı araşdıran müsəlmanlara faydalı olması ümidi ilə.

Tərcüməçidən.

Müəllifin ön sözü

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

Aləmlərin Rəbbi olan Allaha həmd sənalar olsun. Muhəmmədə, ailəsinə və səhabələrinə Allahın salamı və onlara gözəl şəkildə tabe olanlara Onun rəhməti və məğfirəti olsun.

Ömər ibn Xəttab (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: "Həqiqətən əməllər niyyətlərə görə dəyərləndirilir və hər bir insana da onun niyyətinə görə verilir. Ona görə də, Allah və Elçisi üçün hicrət edən ona yetişmiş olar. Dünya malı və qadın üçün hicrət edən də ancaq istədiyinə çatmış olar." (Səhih Buxari №1)

İmam Nəvəvi nəql edir ki, Əbu Səid Əbdurrahmən ibn Mehdi dedi: "Kitab yazmaq istəyən hər kəs qoy bu hədislə başlasın" ("əl Əzhər muntəhaba əl əbrar" səh. 24)

Uca Allahın yardımı ilə mən qiyamət gününün əlamətlərindən biri olan İmam Mehdinin gəlişi barədə olan məlumatları bir kitab halına salmaq qərarına gəldim. Kifayət qədər dini ədəbiyyatın olmasına baxmayaraq, bu məsələni tam açıqlayan bir kitaba rast gəlmədim. Risalənin yazılmasında müxtəlif mənbələrdən istifadə olunmuşdur. Tərcümə prosesində üstünlük əsasən mətnin məna tutumuna veriləcəkdir.

26 Rabi əl-Əvvəl, 1432.

Birinci fəsil

Mehdi kimdir?

Mehdinin gəlişi qiyamət günü əlamətlərindən biridir. O günün yaxınlaşması əlamətləri haqqında Peyğəmbərdən (sallallahu aleyhi va səlləm) varid olmuş və dövrümüzdə gerçəkləşmiş bir çox xəbərlər mövcuddur. Qiyamət gününün böyük və kiçik əlamətləri vardır. Böyük əlamətlər bilavasitə Qiyamət günü qopmamışdan öncə olacaqdır. Bu əlamətlərin bir neçəsi bunlardır:

1) Məsih Dəccəlin (Yalançı Məsih) gəlişi
2) İsanın (aleyhis səlam) zühuru və Mehdinin xilafəti
3) Yəcuc və Məcuc tayfalarının axınları
4) Qərbdə və Şərqdə böyük fəlakətlər
5) Tüstünün yayılması
6) Günəşin qərbdən çıxması
7) Yerdən nəhəng heyvanın çıxması
8) Yəmən tərəfdən böyük alovun çıxması və insanları əhatəsinə toplaması

Bu qeydlər Elmir Quliyevin bu mövzuda olan kitabından götürülmüşdür.

Mehdi barədə nə bilirik?

1) O, Peyğəmbərin (sallallahu aleyhi va səlləm) Əhli Beytindən olacaqdır.

2) O, Fatimənin (Allah ondan razı olsun) nəslindən olacaqdır.

3) Onun adı Rasulullahın (sallallahu aleyhi va səlləm) ismindən olacaq və atasınında adı Peyğəmbərin (sallallahu aleyhi va səlləm) atasının adından olacaqdır.

4) O, ətrafında toplanan müsəlmanlara xəlifə olacaqdır.

Həfs ibn Keysan nəql edir ki, o, Süfyan əs Sevridən soruşmuşdu: "Ey Əbu Abdullah! İnsanlar Mehdi barədə çox söz deyirlər. Sən nə deyə bilərsən?" İmam dedi: "Əgər bir gün o sənin qapına insanlar onun ətrafında toplaşmamışdan öncə gəlsə, onu nə təsdiq, nə də inkar et." (Əbu Əmmar Mahmud əl Misri "Rihlət ilə dar əl axirət" səh. 298-299)

5) Onun dövründə müsəlmanlar bolluq və əmin-amanlıqda yaşayacaqlar.

6) O, özündən öncə hər yerdə zülm olduğu halda, hər yeri ədalətlə dolduracaqdır. Onun idarəçiliyi dövründə bütün dünyada sülh, ədalət və əmin-amanlıq olacaqdır.

7) Onun xilafəti dövründə İsa ibn Məryəm (aleyhis səlam) zühur edəcək və o əsnada onun arxasında namaz qılacaqdır.

8) O, müsəlmanlara səxavət göstərərək və onlara çoxlu mallar paylayacaqdır.

İbn Hacər əl Heysəmi bir çox əlamətləri "əl Qavlul muxtəsər fi alamətil Mehdi əl Muntəzar" kitabında nəql etmişdir. Lakin mən onlardan səhih olanlar ilə kifayətlənirəm.

İbn Qeyyim əl Cəvziyyə yazır: "Üçüncüsü: O, Peyğəmbərin (sallallahu aleyhi va səlləm) Əhli Beytindən və Həsənin (Allah ondan razı olsun) soyundan olacaqdır. Axır zamanda meydana çıxacaqdır. Dünya zülm və haqsızlıqda olduğu halda, onu ədalət və haqla dolduracaqdır.

Rəvayətlərin çoxu buna dəlalət edir. Mehdinin Həsənin (Allah ondan razı olsun) soyundan olmasında bir incəlik vardır. O, xilafəti Allah rizası üçün tərk etdiyinə görə, Allah Təala onun soyundan gələn birini dünyanı ədalətlə işıqlandıracaq xəlifə edəcəkdir. Bu, Allahın məxluqata qarşı olan sünnətidir. Kimsə Allah rizası üçün bir şeydən əl çəkərsə, Allah ona və ya onun zürriyyətinə bundan daha yaxşısını qismət edər." ("əl Mənarul munif fis səhih və zəif" səh. 97)

İkinci fəsil.

Mehdi barədə olan rəvayətlər.

"Mehdinin gəlişi və onun əlamətləri bir çox rəvayətlər ilə təsdiqlənir ki, bunlar mənaca mütəvatir həddinə çatır." (Əbu Əmmar Mahmud əl Misri "Rihlət ilə dar əl axirət" səh. 300)

Əllamə, fəqih və mühəddis Muhəmməd ibn Cəfər əl Qəttani "Nəzmul mutənasira minəl hədisəl mutavatira" kitabında yazır:

№290- Gözlənilən Mehdi barədə olan rəvayət.

Bu rəvayətlər aşağıdakı isnadlarla bu səhabələrdən varid olmuşdur:

1) Abdullah ibn Məsuddan (Allah ondan razı olsun). Bu rəvayəti İmam Əhməd (öl.241), Əbu Davud (öl.275), Tirmizi (öl.279), İbn Macə (öl.273) nəql etmişlər.

2) Umm Sələmədən (Allah ondan razı olsun). Bu rəvayəti Əbu Davud, İbn Macə və Hakim (öl.405) nəql etmişlər.

3) Əlidən (Allah ondan razı olsun). Bu rəvayəti Əhməd, Əbu Davud və İbn Macə nəql etmişlər.

4) Əbu Səid əl Xudridən (Allah ondan razı olsun). Bu rəvayəti Əhməd, Əbu Davud, Tirmizi, İbn Macə, Əbu Yalə (öl.276) və Hakim nəql etmişlər.

5) Səvbandan (Allah ondan razı olsun). Bu rəvayəti Əhməd, İbn Macə və Hakim nəql etmişlər.

6) Qurra ibn İyas əl Muzanni. Bu rəvayəti Bəzzar (öl.292) və Təbərani (öl.360) nəql etmişlər.

7) Abdullah ibn Haris ibn Cuzzdən (Allah ondan razı olsun). Bu rəvayəti İbn Macə, Təbərani nəql etmişlər.

8) Əbu Hureyradan (Allah ondan razı olsun). Bu rəvayəti Əhməd, Tirmizi, Əbu Yalə, Bəzzar, Təbərani və bir çoxları kitablarında nəql etmişlər.

9) Huzeyfa ibnul Yəməndən (Allah ondan razı olsun). Bu rəvayəti Ruyani (öl.307) nəql etmişdir.

10) Abdullah ibn Abbasdan (Allah ondan razı olsun). Bu rəvayəti Əbu Nueym (öl.430) nəql etmişdir.

11) Cabir ibn Abdullahdan (Allah ondan razı olsun). Bu rəvayəti Əhməd, Muslim (öl.261) nəql etmişdir. Lakin Muslimdə axır zaman əlamətləri arasında Mehdinin adı çəkilmir.

12) Osmandan (Allah ondan razı olsun). Bu rəvayəti Dəraqutni (öl.385) "Əfrad" kitabında nəql etmişdir.

13) Əbu Umamədən (Allah ondan razı olsun). Bu rəvayəti Təbərani "əl Kəbir" kitabında nəql etmişdir.

14) Əmmar ibn Yasirdən (Allah ondan razı olsun). Bu rəvayəti Dəraqutni, Hətib (öl.463) və İbn Əsakir (öl.571) kitablarında nəql etmişlər.

15) Cabir ibn Məcid əs Sudəfidən (Allah ondan razı olsun). Bu rəvayəti Təbərani kitabında nəql etmişdir.

16) Abdullah ibn Ömərdən (Allah ondan razı olsun).

17) Təlha ibn Ubeydullahdan (Allah ondan razı olsun). Hər iki səhabənin rəvayətini Təbərani "əl Ausat" kitabında nəql etmişdir.

18) Ənəs ibn Malikdən (Allah ondan razı olsun). Bu rəvayəti İbn Macə nəql etmişdir.

19) Əbdurrahmən ibn Auf. Bu rəvayəti Əbu Nueym nəql etmişdir.

20) İmran ibn Huseyndən (Allah ondan razı olsun). Bu rəvayəti Əbu Əmr əd Dani (öl.444) "Sünən" və bir çoxları kitablarında nəql etmişlər.

Hafiz Səhəvinin (öl.902) qeyd etdiyinə görə bir çox alimlər Mehdi barədə olan rəvayətlərin mütəvatir səviyyəsində olduğunu təsdiqləmişlər.

Səhəvi “Fəth əl muqis” kitabında yazır: “Əbul Huseynin yazdığı bu risalə Mehdi barədə yazılan ilk əsərdir. Həmçinin, Əbul Əli İdris ibn Muhəmməd ibn İdris əl Huseyn əl İraqinin bu barədə bir çalışması da mövcuddur. Mehdi barədə olan rəvayətlər mütəvatir və ya ona yaxın səviyyədədir...”

Şeyx Casus “Şərhul Risalə”-də yazır: “Səhəvinin nəql etdiyi Mehdi barədə olan rəvayətlər bir yerdə mütəvatir səviyyəsinə yetişirlər.”

Zurqaninin “Şərhul məvahib” kitabında yazılır: “Mehdi barədə olan rəvayətlər ki, o bu ümmətdən çıxacaq və İsa (aleyhis salam) onun arxasında namaz qılacaqdır, təvatür dərəcəsindədir.”

Şeyx Muhəmməd ibn Əhməd əs Səffarani “Şərhul əqidə” kitabında yazır: “Mehdi barədə olan rəvayətlər çoxsaylıdır və mənaca mütəvatir səviyyəsinə yetişir və bu Əhli Sünnə alimləri arasında o qədər məşhurdur ki, onlar bunu əqidə əsaslarından hesab edirlər.”

Burada Muhəmməd ibn Cəfər əl Qəttaninin kitabından olan sitat bitdi.

Muhəmməd ibn Əli əş Şəukani deyir: “Bizə Mehdi barədə 50-yə yaxın mütəvatir hədis varid olmuşdur. Onlardan bir qismi səhih,bir qismi həsən, bir qismi isə zəifdir. Mehdi barədə olan rəvayətlər şübhəsiz ki, mütəvatirdirlər.” (Əbu Əmmar Mahmud əl Misri “Rihlət ilə dar əl axirət” səh. 300)

Oxucunun diqqətinə bir neçə rəvayəti çatdırmaq istərdik.

1) İmam ibn Macə əl Qəzvini “Sünən” kitabında Əbu Səid əl Xudridən (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: “Ümmətimdə Mehdi olacaqdır. Onun qısa xilafəti zamanında ümmətim elə bolluqda olacaqdır ki, heç bir vaxt bunlara əvvəllər nail olmamışdı. Yer onlara nemətlərini əta edəcək, heç nəyi gizlətməyəcəkdir. Nemətlər o qədər çoxalacaqdır ki, bir adam qalxıb, ”Ey Mehdi! mənə mal ver dedikdə” o ona belə deyəcəkdir: “buyur, götür.” Şeyx Albani yazır ki, hədis həsəndir.” (hədis №4083, Şeyx Albaninin tədqiqi ilə, Riyad)

2) İmam Əbu Daud “Sünən” kitabında bir çox isnadla İbn Məsuddan (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: “Qiyamət gününə bir gün qalmış olsa belə, Allah mənim ailəmdən olan bir şəxsi dünyaya göndərəcək və həmin şəxs zülmlə dolu olan bu dünyaya ədalət və bərabərlik gətirəcəkdir.” Şeyx Albani yazır ki, hədis həsən-səhihdir.” (hədis №4282, Şeyx Albaninin tədqiqi ilə, Riyad)

3) İmam Əbu İsa ət Tirmizi “Sünən” kitabında Abdullah ibn Məsuddan (Allah ondan razı olsun) nəql edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) belə buyurmuşdur: “Mənim ailəmdən olan və adı mənim adımla eyni olan bir şəxs ərəblərə rəhbərlik etmədikcə dünyanın sonu gəlməyəcəkdir..."

İmam Tirmizi yazır: “Belə rəvayət Əli, Əbu Səid, Umm Sələmə və Əbu Hureyrədən də varid olmuşdur. Bu rəvayət həsən-səhihdir.” Şeyx Albani də hədisi həsən-səhih adlandırmışdır. (hədis №2230, Şeyx Albaninin tədqiqi ilə, Riyad)

4) İmam Əbu İsa ət Tirmizi “Sünən” kitabında Əbu Səid əl Xudridən (Allah ondan razı olsun) rəvayət edir: “Biz Peyğəmbərdən (sallallahu aleyhi va səlləm) sonra fitnə olacağından ehtiyat edərək ondan bu barədə soruşduq. O buyurdu: “Ümmətimdən Mehdi adlı şəxs çıxacaqdır. Bundan sonra o 5, 7 və ya 9 il hökm edəcəkdir. Adam gəlib ona deyəcək: “mənə ver, mənə ver.” O isə adama paltarının tuta biləcəyi qədər sərvət verəcəkdir.”

İmam Tirmizi deyir: “Bu rəvayət həsəndir və Əbu Səiddən müxtəlif variantlarla varid olmuşdur. Şeyx Albani bu hədisin həsən olduğunu qeyd etmişdir.” (hədis №2232, Şeyx Albaninin tədqiqi ilə, Riyad)

5) İmam Əbu İsa ət Tirmizi “Sünən” kitabında Abdullah ibn Məsuddan (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: “Mənim ailəmdən olan və adı mənim adımla eyni olan şəxs bu işin başına gələcəkdir.”Asim dedi ki, Əbu Saleh Əbu Hureyradan (Allah ondan razı olsun) nəql edir ki: “Əgər dünyanın sonuna bir gün qalmış olsa belə Allah onu uzadar ki, o bu işin başına gəlsin.”

İmam Tirmizi deyir: “Bu hədis həsən-səhihdir. Bu fikri Albani də dəstəkləyir. (hədis №2231, Şeyx Albaninin tədqiqi ilə, Riyad)

6) İmam Əbu Daud əs Sicistani “Sünən” kitabında Əli ibn Əbu Talibdən (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: **“**Dünyanın sonuna bir gün qalmış olsa belə, Allah dünyaya ədalət və bərabərlik gətirəcək, zülmün və istibdadın qarşısını alacaq ailəmdən olacaq bir şəxs göndərəcəkdir.”

Şeyx Albani qeyd edir ki, hədis səhihdir.” (hədis №4283, Şeyx Albaninin tədqiqi ilə, Riyad)

7) İmam Əbu Daud əs Sicistani “Sünən” kitabında Umm Sələmədən Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu rəvayət edir: “Mehdi mənim soyumdan, Fatimənin övladlarından olacaqdır.”

Şeyx Albani qeyd edir ki, hədis səhihdir.” (hədis №4284, Şeyx Albaninin tədqiqi ilə, Riyad)

Həmçinin Suyuti “Camius saqir”də (№9241), İbn Teymiyyə “Minhəcus sunnə”də (8/255) bunu səhih adlandırmışlar. Bu rəvayəti həmçinin İbn Macə və Hakim də nəql etmişlər.

Nueym ibn Həmmad əl Mərvəzi “əl Fitən” (№1082) kitabında nəql edir ki, Qatadə, Səid ibn əl Museyyibdən (Allah ondan razı olsun) soruşdu:

-Mehdi haqdırmı?”

- Haqdır.

- O kimlərdəndir?

- Qureyşdəndir.

- Hansı Qureyşdəndir?

- Bəni Haşimdəndir.

- Bəni Haşimdən kimlərdən?

- Bəni Əbdulmutəllibdən.

- Əbdulmutəllibdən olan kimlərdən?

- Fatimə övladlarından."

Əl Mərvəzi həmçinin "Fitən"də (№1087) İbn Abbasın Muaviyyənin hüzurunda belə dediyini nəql edir: "Allah Təala biz Əhli Beytdən Mehdi göndərəcəkdir."

Həmçinin Muhəmməd Baqirdən nəql olunur: "O (Mehdi) Bəni Haşimdən olan Fatimə övladlarındandır." ("Fitən" №1102)

Əl Mərvəzi "Fitən"də (№1112) Kəbb ibn Malikdən (Allah ondan razı olsun) rəvayət edir: "Mehdi Fatimə övladlarındandır."

Zuhridən "Fitən"də (№1114) nəql olunur: "Mehdi Fatimə övladlarındandır."

Zirra ibn Hubeyşdən "Fitən"də (№1117) nəql olunur: "Mən eşitdim ki, Əli (Allah ondan razı olsun) dedi: "Mehdi bizlərdən, Fatimə övladlarındandır."

İmam Təbərani "Əl Kəbir" kitabında Əli əl Hilalidən rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) Fatiməyə (Allah ondan razı olsun) buyurdu: "Məni haqq ilə göndərənə and olsun ki, bunlardan (Həsən, Hüseyn) bu ümmətin Mehdisi olacaqdır."

Bu sözlər uzun rəvayətin bir hissəsidir. Bunu əl Heysəmi "Məcmauz zəvaid"də (№14967) nəql etmiş və qeyd etmişdir ki, sənəddə Heysəm ibn əl Həbib adlı ravi vardır ki, Əbu Hatim onun rəvayətlərini münkər adlandırmışdır.

Heydər Hatiboğlu yazır: "Mehdinin kimin soyundan gəlməsində fikir ayrılığı vardır. Yəni onun Həsən (Allah ondan razı olsun), yoxsa Hüseynin (Allah ondan razı olsun) soyundan olmasında ixtilaf vardır." ("Şərh Sunən ibn Macə" c.10, səh. 351)

Əbu Nueym "Ərbain fi Mehdi" (№6) kitabında Peyğəmbər (sallallahu aleyhi va səlləm) Huzeyfa ibn Yamənin (Allah ondan razı olsun) sualı üzərinə "O Hüseyn ibn Əlinin soyundandır" buyurmuşdur.

Rəvayətin sənədində Abbas ibn Bəqqar əd Dəbbi adlı ravi vardır ki, o Dəraqutninin və başqalarının qeyd etdiklərinə görə yalançıdır.

Mehdinin Həsənin (Allah ondan razı olsun) soyundan gəlməsi barədə də rəvayətlər mövcuddur. Əbu Daud "Sünən" (№4290) kitabında Əli ibn Əbu Talibdən (Allah ondan razı olsun) bunu nəql etmişdir. Şeyx Albani bu rəvayəti zəif hesab etmişdir. Səbəb sənəddə isnadın qopuq olmasıdır.

Əbdurrahmən Qeylani "Əşratus səat" kitabında (səh. 124) yazır: "Mehdinin Həsən, yoxsa Hüseynin soyundan olması məlum deyil. Bu barədə olan rəvayətlər səhih deyil."

İmam Əbul Fida ibn Kəsir yazır: "Mehdi-Muhəmməd ibn Abdullah əl Ələvi əl Fatimi Həsəni" (Əbu Əmmar Mahmud əl Misri "Rihlət ilə dar əl axirət" səh. 296)

Əbu Əmmar Mahmud əl Misri yazır: "Əhli Sünnə alimlərinin əksəriyyətinin rəyinə görə Mehdi Əhli Beytdən olan Həsən ibn Əlinin soyundan gələcəkdir. (həmin yer, səh. 295)

"Həmçinin mümkündür ki, ata tərəfdən o Həsənin, ana tərəfdən isə Hüseynin soyundan olsun." ("Şərh Sunən ibn Macə" c.10, səh. 351)

8) İmam ibn Macə əl Qəzvini "Sünən" kitabında Əlidən (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu nəql edir: "Mehdi bizim əhli beytdəndir. Allah onu bir gecədə islah edəcəkdir. "Şeyx Albani hədisin həsən olduğunu qeyd etmişdir." (hədis №4085, Şeyx Albaninin tədqiqi ilə, Riyad)

Rəvayəti Əhməd "Müsnəd"də (№645), həmçinin Əbu Yəla və ibn Əbu Şeybə "Müsənnəf"də rəvayət etmişdir.

9) Əbu Nueym əl İsfəhani "Ərbain fi Mehdi"də (№4) Hüseyn ibn Əli ibn Əbu Talibdən (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu aleyhi va səlləm) Fatiməyə (Allah ondan razı olsun) belə buyurduğunu rəvayət edir: "Mehdi sənin övladlarından olacaqdır."

Şeyx Albani buna bənzər rəvayəti bu mətnlə nəql etmişdir: "Sənə müjdə olsun, ey Fatimə! Mehdi səndəndir." (Daif əl camius saqir" №41)

10) Əbu Nueym əl İsfəhani "Ərbain fi Mehdi"də (№38) Əbu Səid əl Xudridən (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu rəvayət edir: "İsa ibn Məryəm bizlərdən olan birinin arxasında namaz qılacaqdır."

Şeyx Albani hədisin səhih olduğunu qeyd etmişdir." ("Silsiləs səhiha" №2293; "Səhih cami əs saqir" №5920)

11) İmam Əbu Əmr əd Dani "Sünən vəradat fil fitən" (№584) kitabında Əbu Səid əl Xudridən (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu rəvayət edir: "Mənim əhli beytimdən bir şəxs meydana çıxacaq və mənim sünnəm ilə hərəkət edəcəkdir. Allah ona bərəkət göndərəcək, torpaq məhsul verəcək və o, özündən öncə hər yerdə zülm və haqsızlıq olduğu halda, hər yerdə ədaləti və haqqı bərpa edəcəkdir. Sənəddə Əbu Umeyyə əl Xəttabi adlı mətruk ravi vardır.

Buxari “Tarix əl kəbir”, Təbərani “əl Ausat” kitablarında bənzər rəvayəti digər sənədlə nəql etmişlər: Əbu Vasil ibn Əbdulhumeyd – Əbu Sadiq ən Nəcdi – Həsən ibn Yezid əs Saadi.

Əl Heysəmi “Məcmauz zəvaid”də qeyd etmişdir ki, sənəddə ona məlum olmayan ravilər vardır.

İbn Qeyyim əl Cəvziyyə “əl Mənarul munif fis səhih və daif” kitabında bu və buna bənzər rəvayətləri nəql etdikdən sonra qeyd edir ki, sənədlərin zəif olmasına baxmayaraq, onlar bir-birini tamamlayır və bu Əhli Sünnənin nəzərinə müvafiqdir.

12) İmam Əbu Abdullah əl Hakim “Mustədrək”də (№8669) Əbu Səid əl Xudridən (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu rəvayət edir: “Qiyamət günü dünya zülmə, haqsızlığa bürünməyənə qədər qopmayacaqdır. Sonra mənim əhli beytimdən dünyada sülh, ədalət və əmin-amanlıq bərpa edəcək şəxs çıxacaqdır.”

Hakim deyir: “Rəvayət Buxari və Muslimin şərtlərinə görə səhihdir.” Zəhəbi “Təlxis” kitabında bu fikirlə razılaşmışdır. Həmçinin Şeyx Albani də bunu qeyd etmişdir.”

İmam Əhməd bu rəvayəti “Musnəd” (№11239) kitabında bir qədər fərqli mətnlə nəql etmişdir: “Dünya zülm və haqsızlığa bürünəcək, sonra mənim əhli beytimdən bir şəxs çıxacaq və 7 və ya 9 il hökm edəcəkdir. O, dünyaya haqq və ədalət gətirəcəkdir.”

Şeyx Şueyb Arnaut deyir: “Rəvayət “7 və ya 9 il hökm edəcəkdir” sözləri istisna səhihdir. Ravilər Mətar ibn Təhmandan başqa səhih əsərlərin ravilərıdır.”

13) İmam Bəzzar “Musnəd”də (№3323) Muaviyyə ibn Qurra ibn Yiasədən, o da atasından Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu rəvayət edir: “Heç şübhəsiz dünya zülm və haqsızlıqla istibdad olacaqdır və dünya zülmə tamamilə büründükdə Allah məndən və adı mənim adımdan olan bir şəxsi göndərəcəkdir. O, dünyada sülh, ədalət və əmin-amanlıq bərpa edəcəkdir.” Hədis səhihdir. (“Silsiləs səhiha” №1529)

14) İmam ibn Hibban əl Busti “Səhih”də (№6825) Abdullah ibn Ömərdən (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu rəvayət etmişdir: “Mənim əhli beytimdən adı mənim adımdan, əxlaqı mənim əxlaqımdan olan bir şəxs gələcəkdir. O, özündən öncə hər yerdə zülm və haqsızlıq olduğu halda, hər yerdə ədaləti və haqqı bərpa edəcəkdir.”

Şeyx Şueyb Arnaut qeyd etdiyi kimi rəvayətin sənədi zəifdir.

15) İmam Muslim “Səhih”də (№ 2913–67) Cabir ibn Abdullahdan (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu rəvayət etmişdir: “Axır zamanda mənim ümmətimdə insanlara mal-dövləti əli açıqlıqla paylayan xəlifə olacaqdır.”

Bu hədisin ravilərindən biri digər iki Əbu Nadr və Əbul Əla adlı ravidən soruşdu: “Sizcə söhbət Ömər ibn Əbduləzizdən gedir?” Onlar dedilər: “Xeyr.”

İbn Hacər əl Heytəmi bu hədisi özünün "Əl Qavlul muxtəsər fi alamətil Mehdi əl muntəzar" (№31, səh 23) kitabında nəql etmişdir.

Bu hədisi həmçinin Əhməd və İbn Hibban Əbu Səid əl Xudridən (Allah ondan razı olsun) Ömər ibn Əbduləzizə işarə etmədən rəvayət etmişlər.

16) İbn Adiy Əbdurrahmən ibn Aufdan (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurdu: "Allah mənim əhlimdən bir şəxs göndərəcəkdir. Onun dişləri bir-birindən bir qədər aralı, alnı isə geniş olacaqdır. O, özündən öncə hər yerdə zülm və haqsızlıq olduğu halda, hər yerdə ədaləti və haqqı bərpa edəcək və mal-dövlət paylamaqda səxavətli olacaqdır." ("əl Kamil fi duafə ər rical" c.3, səh. 423, №846)

Rəvayətin sənədində Talut və Suveyd ibn Hatim adlı ravi vardır ki, İbn Qeyyim əl Cəvziyyə onları zəif hesab etmişdir.

17) İbn Macə "Sünən" (№4077) kitabında Əbu Umamə əl Bəhlidən Qiyamət gününün əlamətləri barədə uzun hədis rəvayət edir ki, orada Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurur: "Mədinə şəhəri əhalisi ilə birgə üç dəfə silkələnəcəkdir və orada Məsih Dəccala tərəf getməyən heç bir münafiq kişi və qadın qalmayacaqdır. Beləliklə, Mədinə dəmir körükdən təmizləndiyi kimi ləkədən təmizlənəcək və o gün xilas günü hesab olunacaqdır."

Bunu eşidən Umm Şərik bint Əbul Əqari soruşdu: "Ya Rasulullah! Bəs ərəblər o gün harada olacaqlar?" O buyurdu: "Ərəblər o gün az olacaq. Onların çoxu o gün Beytul Məqdisdə olacaq və onların İmamı saleh bir şəxs (Mehdi) olacaqdır. O, bir dəfə sübh namazında önə keçdiyi zaman İsa ibn Məryəm zühur edəcəkdir. Bunu görən İmam İsa peyğəmbərin (aleyhis salam) önə keçməsi üçün geri çəkilməyə başlayacaqdır. Lakin İsa peyğəmbər (aleyhis salam) əlini onun çiyninə qoyub deyəcək: "İnsanlara namazı qıldır. Axı namaza çağırış sənin üçün edilib."

Şeyx Albanidən iki fərqli rəy gəlmişdir. İbn Macədə olan bu hədisin şərhində o bu rəvayəti zəif, "Səhih əl camius saqir" (№7875) kitabında isə bu hədisi səhih hesab etmişdir.

Bu başa düşülən bir məsələdir. Alim həyatı boyu tədqiqatları ilə elmini artırır. Öncələr onun zəif hesab etdiyi rəvayət daha sonralar aşkar etdiyi digər dəlillər ilə səhihləşə bilər. Təəsüf ki, şeyxin birinci rəyinin hansı rəvayət olmasını dəqiqləşdirmək mümkün olmadı.

İbn Qeyyim da bu rəvayətin zəif olmasını qeyd etmişdir. Bu rəvayətin digər hissəsi başqa bir ravidən varid olmuşdur.

İmam Muslim "Səhih" (№ 156–247) kitabında Cabir ibn Abdullahdan (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: "Ümmətimdən hər zaman Qiyamət gününə qədər haqq yolunda vuruşan bir dəstə olacaqdır. İsa ibn Məryəm enəcək və müsəlmanların əmiri ona deyəcək: "namazımızı qıldır" O (İsa) deyəcək: "Xeyr. Sizlərdən bəziniz digərlərinə əmirdir. Bununla Allah bu ümməti üstün etmişdir."

İmam Əhməd bu hədisi "Müsnəd"də (№14762) nəql etmişdir. Şeyx Şueyb Arnaut dedi: "Hədis səhihdir, amma sənəd ibn Luheyinin zəif yaddaşlı olmasına görə zəifdir."

İmam Əbu Nueym "Ərbain fi Mehdi" (№39) kitabında bu rəvayəti digər sənədlə nəql etmişdir. Lakin mətndə belə bir ifadə var: "və onların əmiri Mehdi deyəcək"

Şeyx Albani "Silsiləs səhiha" (№2236) kitabında qeyd edir ki, rəvayətin sənədi yaxşıdır, raviləri siqadır.

İbn Əbu Şeybə "Musənnəf"də (№37478) Osman ibn Əbul Asdan rəvayətdə nəql edir: "İsa ibn Məryəm sübh namazı vaxtı enəcək və bu zaman müsəlmanların əmiri ona deyəcəkdir: "Ey Allahın ruhu! İrəli keç və bizim namazımıza imamlıq et." İsa (aleyhis salam) ona deyəcək: "Siz bu ümmətdənsiniz, bəzilərinizdigərlərinə imamdır. İrəli keç və namazı qıldır." Müsəlmanların əmiri irəli keçəcək və namaz qılacaqdır."

Bu rəvayətin sənədində Əli ibn Zeyd ibn Cadən vardır ki, o zəifdir. Bu ravi həmçinin "Əl kəbir"də olan rəvayətin sənədində də vardır.

Hakim "Mustədrək"də bu rəvayəti iki sənədlə nəql etmişdir. Sənədin birində ibn Cadən vardır. Zəhəbi "Təlxis"də sənəddə olan zəif raviləri qeyd etmişdir.

Nueym ibn Həmmad "Əl Fitən"də (№1103) Abdullah və Amr ibn Asdan rəvayət edir ki, o dedi: "Mehdi o şəxsdir ki, onun yanına İsa ibn Məryəm enəcək və İsa (aleyhis salam) onun arxasında namaz qılacaqdır." Rəvayətin sənədində Əli ibn Zeyd ibn Cadən və onun məchul şeyxi vardır.

İmam Təbəraninin nəql etdiyi rəvayətdə: "Mehdi gələndə İsa (aleyhis salam) enəcək və elə görsənəcək ki, sanki onun saçından su tökülür. Mehdi ona deyəcək: "İrəli keç və insanlara namaz qıldır." İsa (aleyhis salam) isə cavabında: "Namaza çağırış sənin üçün verilib!" və beləcə, o mənim övladlarımdan birinin arxasında namaz qılacaqdır." (İbn Hacər əl Heysəmi "Səvaiq əl muhriqa və zandaqə" 2/475)

Nueym ibn Həmmad "Sünən"də (№1107), İbn əbu Şeybə "Müsənnəf"də (№37649) Muhəmməd ibn Sirinin belə dediyini nəql edirlər: "Mehdi bu ümmətdəndir və İsa ibn Məryəmə namaz qıldırandır."

Bərzənci dedi: "Mehdinin əlamətlərindən biri onun İsa (aleyhis salam) ilə birləşməsi və İsa peyğəmbərin (aleyhis salam) onun arxasında namaz qılmasıdır." (Əbu Əmmar Mahmud əl Misri "Rihlət ilə dar əl axirət" səh. 299)

İmam Muhəmməd ibn İsmail əl Buxari və İmam Muslim Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edirlər ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: "Sizlərdən birinizin imam olduğu halda İsa ibn Məryəm aranızda zühur edtdikdə halınız necə olacaq?" (Buxari "Səhih" №3265; Muslim "Səhih" №155 – 244)

Molla əl ibn Sultan əl Qari əl Hənəfi bu hədisin şərhində yazır: "Yəni, İmam bizim dindən olacaqdır və deyilmişdir ki, imam Qureyşdən olan Mehdi olacaqdır."

Həmçinin deyilmişdir ki, İsa (aleyhis salam) İmam olacaq, Quran və İncil ilə hökm edəcəkdir.”

18) İmam Əhməd “Musnəd”də (№22441) Səvbandan (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: “Əgər siz Xorasan tərəfdən qara bayraqlar görsəniz, ora tərəf gedin və orada Allahın xəlifəsi Mehdini tapacaqsız.”

Şeyx Arnaut qeyd etdiyi kimi, rəvayətin sənədi zəifdir. Şeyx Albani rəvayəti “Daif əl cami”də (№506) zəif adlandırmışdır. Əl Mubarəkfuri “Tuhfətul əhvəzi”də (6/140) yazır: “Rəvayətin sənədində Şərik ibn Abdullah əl Qazi vardır ki, onun yaddaşı zəif idi və Əli ibn Zeyd ibn Cadən vardır ki, tənqid olunmuşdur.”

İbn Qeyyim əl Cəvziyyə yazır: “Əli ibn Zeyd ibn Cadən zəif ravi olaraq münkər rəvayətlər nəql edərdi.” (“əl mənarul munif fis səhih və daif” səh.95-96)

Hakim buna bənzər rəvayəti “Müstədrək”də (№8531) nəql etmiş və qeyd etmişdir ki, hədis iki şeyxin şərtlərinə görə səhihdir.

Zəhəbi yazır: “Sənəddə Əbdulvəhhab ibn Ata adlı ravi vardır. Onun haqqında alimlərin fərqli rəyləri vardır. Əhməd onun rəvayətlərinin dolaşıq, özünün isə zəif ravi olduğunu qeyd etmişdir.” (“Mizanul itidal” c.2, səh. 681, №5322)

19) İmam Əbu Nueym “Ərbain fi Mehdi”də (№18) Əbu Səid əl Xudridən (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu rəvayət edir: “Mən sizə Mehdi barədə müjdə verirəm. O, mənim ümmətimə fitnələr və fəlakətlər zamanı göndəriləcəkdir. O, özündən öncə hər yerdə zülm və haqsızlıq olduğu halda, hər yerdə ədaləti və haqqı bərpa edəcəkdir. Göy və yer əhli ondan razı olacaqdır. Mal-dövləti insanlar arasında səxavətlə paylayacaqdır.”

Əl Heysəmi “Məcmau zəvaid”də (№12393) qeyd edir ki, ravilər siqadır. Şeyx Albani hədisi zəif hesab etmişdir. Rəvayəti həmçinin İmam Əhməd “Müsnəd”də (№11344) nəql etmişdir. Şeyx Arnaut qeyd edir ki, sənəd Əli ibn Bişr adlı məchul raviyə görə zəifdir.

20) İmam Əbu Nueym “Ərbain fi Mehdi”də (№31) Əbu Hureyradən (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu rəvayət edir: “Qiyamət gününə bir gün qalmış olsa belə, Allah mənim ailəmdən olan bir şəxsi dünyaya göndərəcək və o əmir olacaqdır.”

Şeyx Albani hədisi həsən adlandırmışdır. İbn Hibban bu rəvayəti “Səhih” (№5953) kitabında Əbu Hureyradan (Allah ondan razı olsun) və İbn Məsuddan (Allah ondan razı olsun) rəvayət etmişdir.

21) İmam Əbu Nueym “Ərbain fi Mehdi”də (№32) Səvban (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu rəvayət edir: “Sizin beytulmalın yanında hamısı xəlifə övladı olan üç nəfər öldürüləcəkdir və beytulmal onların heç birinə qismət olmayacaqdır. Sonra qara bayraqlar gələcək və o günə kimi heç kimin etmədiyi bir

müharibə edəcəklər. Sonra Allahın xəlifəsi Mehdi gələcək. Onun haqqında eşitdiyiniz zaman onun yanına gedin və ona beyət edin. Çünki o Allahın xəlifəsi Mehdidir."

Buna oxşar rəvayəti Hakim nəql etmiş və qeyd etmişdir ki, iki şeyxin şərtlərinə görə hədis səhihdir. İmam Zəhəbi də eyni rəyi "Mustədrək"də (№8432) qeyd etmişdir.

İmam Qurtubi "Təzkirat" kitabında rəvayəti İbn Macəyə istinadən nəql etmiş və qeyd etmişdir ki, sənəd səhihdir. Şeyx Albani hədisi "Zəif ibn Macə"də zəif adlandırmışdır.

22) İmam Əbu Nueym "Ərbain fi Mehdi"də (№36) Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: "Qiyamət gününə bir gün qalmış olsa belə, Allah möhlət verəcəkdir ki, mənim ailəmdən olan şəxs ümmətə əmir olsun və o Konstantinapol və Deyləmi fəth edəcəkdir."

Bu hədisi həmçinin İbn Macə "Sunən"də (№2779) nəql etmişdir.

İmam Qurtubi "Təzkirat" kitabında İbn Macənin sənədinin səhih olduğunu qeyd etmiş, Şeyx Albani isə hədisi "Zəif əl cami"də (№4846) zəif adlandırmışdır.

23) İmam Təbərani "Əl Kəbir"də Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu nəql edir: "Məndən sonra xəlifələr, xəlifələrdən sonra əmirlər, əmirlərdən sonra isə zalım hökmdarlar hökmranlıq edəcəklər. Sonra əhli beytimdən olan bir nəfər qalxacaq, özündən öncə hər yerdə zülm olduğu halda, hər yeri ədaləti bərpa edəcəkdir."

Əl Heysəmi "Məcmau zəvaid"də (№8965) qeyd edir ki, sənəddə ona məlum olmayan ravilər vardır. Şeyx Əbdurrauf əl Munəvi də sənəddə məchul ravilərin olduğunu bildirmişdir. Şeyx Albani hədisi "Silsilə əd Daifə"də (№3722) zəif adlandırmışdır.

24) İmam Əbu Nueym "Ərbain fi Mehdi"də (№40) Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: "Başında mənim, sonunda İsanın (aleyhis salam), ortasında isə Mehdinin olduğu ümmət məhv olmayacaqdır."

Şeyx Albani hədisi "Silsilə əd Daifə"də (№2349) münkər adlandırmışdır.

25) İmam Əbu Adullah əl Hakim "Mustədrək"də (№8659) Muhəmməd ibnul Hənəfiyyədən rəvayət edir: "Biz bir nəfərin Əlidən (Allah ondan razı olsun) Mehdi barədə soruşduğu zaman onun yanında idik. İmam dedi: "Get, sonra əli ilə 7 ədəd barmağını qatlayaraq dedi: "O, axır zamanda çıxacaqdır. O dövrdə Allah-Allah deyən hər kəsi ölüm haqlayacaqdır. Allah Təala onun ətrafına dağınıq buludlar bir yerə tolandığı kimi dəstələri cəm edəcək və onların qəlblərini birləşdirəcəkdir. Onlar heç kəsdən qorxmayıb,insanlara bərabər gözlə baxacaqlar. Xəlifənin ətrafına Bədrdə döyüşən səhabələrin sayı qədər insan toplanacaqdır. Bu dəstə onlardan öncə heç kəsə verilməyən bir üstünlüyə sahib olacaqdır və onların sayı Talutla bərabər İordan çayını keçən səhəbələrinin sayı qədər olacaqdır."

Əbu Tufeyl (ravi) dedi: "Muhəmməd ibnul Hənəfiyyə onu dinləyənlərə dedi: "Siz o dəstədən olmaq istəyirsiz?" Mən dedim: "bəli" Kəbənin iki sütununa işarə edən Muhəmməd

ibnul Hənəfiyyə dedi: “Mehdi buradan çıxacaqdır.” Bundan sonra Əbu Tufeyl dedi: “Allaha and olsun! Mən buranı sağ olduğum müddətcə tərk etməyəcəyəm.”

Hakim dedi: “Rəvayət iki şeyxin şərtlərinə görə səhihdir. Zəhəbi də “Təlxis”də bununla razılaşmışdır.

26) İmam Əbu Yəla “Musnəd” (№6665) kitabında Bəşir ibn Nəhiqdən rəvayət edir ki, Əbu Hureyra (Allah ondan razı olsun) dedi: “Mənə sevimli dostum Əbul Qasim (sallallahu aleyhi va səlləm) buyurdu: “Əhli beytimdən haqqa boyun əymədikcə onlarla döyüşən bir şəxs gəlmədikcə qiyamət günü qopmaz.” Mən soruşdum: “O neçə müddət hökm edəcək?” O dedi: “beş və iki”.

Mən soruşdum: “bu nədir?” O buyurdu: “bilmirəm” (ehtimal var ki, sonuncu sual ravi tərəfindən Əbu Hureyrəyə verilmişdir).

Huseyn Suleym Əsəd qeyd edir ki, hədisin sənədi səhihdir. Əl Heysəmi “Məcmauz zəvaid”də (№12401) yazır: “Sənəddə Əbu Zuranın siqa, İbn Muinin isə zəif hesab etdikləri əl Muracə ibn Racə adlı ravi vardır. Digər ravilər isə siqadır.

27) İmam Təbərani “Əl Kəbir”də Auf ibn Malikdən Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu rəvayət edir: “Sonra tozlu və qara fitnə gələcəkdir. Fitnələr mənim ailəmdən Mehdi adlı şıxsin çıxacağı dövrə qədər bir-birini əvəz edəcəkdir. Əgər sən ona rastlasan, tabe ol.”

Əl Heysəmi “Məcmauz zəvaid”də (№12401) qeyd edir ki, sənəddə Əbdulhumeyd ibn İbrahim vardır ki, onu İbn Hibban siqa saymış, amma Nəsai və Əbu Hatim onu rəvayətlərdə “heç nə” adlandırmışlar.” (“Mizanul itidal” c.2, səh. 537, №4762)

Həmçinin sənəddə bir neçə ona məlum olmayan ravilər vardır.

28) Nueym ibn Həmmad “Fitən”də (№965) nəql edir ki, Əli (Allah ondan razı olsun) dedi: “Elə ki, carçı səmadan nida edəcək: “Haqq Muhəmmədin əhlindədir”. İnsanlar Mehdini çağırmağa və ona bağlanmağa başlayacaqlar.”

Rəvayət əslində Peyğəmbərə (sallallahu aleyhi va səlləm) istinad edilməlidir. Çünki burada gələcəkdən xəbər verilir.

Rəvayətin sənədi zəifdir. Sənəddə Abdullah ibn Luhey adlı zəif ravi vardır. Rəvayətin sonuncu hissəsi mətnin doğruluğu haqqında şübhə yaradır.

29) əl Musəddad “Musnəd”də tabein Əbul Cəld adı ilə tanınan Ceylan ibn Fərvanın belə dediyini nəql edir: “Bu ümmət onu idarə edən 12 xəlifə olmadığı müddətcə həlak olmayacaqdır. Onlar haqq din ilə hökm edəcəklər. Onlardan iki nəfər əhli beytdəndir. Biri 40, digəri isə 30 il yaşayacaqdır. Onlardan sonra isə onlardan olmayan xəlifələr olacaqdır.” (İbn Hacər “Mətalibul aliyyə” №4552)

Sənəddə olduqca zəif olan Əbu Bəkr Əbdurrahmən ibn Osman adlı ravi vardır.

30) İbn Əbu Şeybə "Musənnəf"də (№37640) Əbu Səid əl Xudridən (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu nəql edir: "Axır zamanda hesabsız nemətlər paylayan xəlifə olacaqdır."

31) İmam Əbu Əmr əd Dani "Sünən" (№578) kitabında Səlim ibn əbi Caddan (Allah ondan razı olsun) rəvayət edir: "Biz Həccə yollandıq və Abdullah ibn Əmr ibn əl Asa rast gəldik. O soruşdu: "Sən hardansan?" Mən dedim: "İraqdan". O soruşdu: "Sən Kufədənsən?" Mən dedim: "bəli". O dedi: "Onlar Mehdi sayəsində xoşbəxt olacaqlar."

Əl Mubarəkfurinin qeyd etdiyinə görə sənəd həsəndir.

İbn Əbu Şeybə "Musənnəf"də (№32454), İbn Sad "Təbəqat"da (6/10) İbn Abi Caddan rəvayət edirlər ki, Abdullah ibn Əmr ona deyib: "İnsanlar arasında Mehdiyə görə ən çox bəxtəvər olanlar Kufəlilər olacaqdır."

32) İmam Təbərani "Əl Saqir"də (№94) Əbu Əyyub əl Ənsaridən (Allah ondan razı olsun) Peyğəmbərinin (sallallahu aleyhi va səlləm) Fatiməyə (Allah ondan razı olsun) belə buyurduğunu rəvayət edir: "Sizin peyğəmbəriniz elçilərin ən üstünüdür və o sənin atandır. Bizim şəhidimiz də şəhidlərin ən üstünüdür və o sənin əmin Həmzədir. İki qanadı ilə cənnətdə uçan əmin oğlu Cəfər də bizlərdəndir. Bu ümmətin iki nəvəsi Həsən və Hüseyn də bizlərdəndir və onlar sənin övladlarındır və Mehdi də bizlərdən olacaqdır."

Təbərani deyir: "Bunu Əmaşdan Qeysdən başqa heç kəs nəql etməyib və Hüseyn Əşkar bu nəqldə təkdir."

Rəvayətin sənədi olduqca zəifdir.

Sənəd belədir: "Əhməd ibn Abbas əl Mərri əl Qantəri – Hərb ibn Həsən ət Təhan – Huseyn ibn Həsən əl Əşkar – Qeys ibn Rabiə - əl Əmaş – Ubeyyə ibn Rabiə - Əbu Əyyub.

Hərb ibn Həsən, ət Təhan əl Yəzdi tərəfindən tənqid olunub. Hüseyn ibn Həsən əl Əşkar haqqında "Muğni fi duafa" (№1515) kitabında yazılır: "Onu ibn Adiy tənqid edib və digərləri zəif sayıblar və o rafizi olub."

Qeys ibn Rabiə. Zəif yaddaşı olan siqa ravidir. ("Muğni fi duafa" №5063)

Əl Əmaş Süleyman ibn Mihran siqa ravidir. Lakin o hədisdə tədlisə görə tanınır. Bu rəvayəti də o "muannən" formada nəql etmiş, yəni bunu özünün eşidib-eşitmədiyini bildirməmişdir.

"Ubeyyə ibn Rabiə- ifrat şiə olmuşdur." ("Mizanul itidal" c.2, səh. 387, №4188)

33) Təbərani özünün "Musnəd əş Şamiin" (№937) kitabında Abdullah ibn Amrdan rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: "Mehdi çıxacaq və onun başının üstündə mələk olacaq ki, nida edəcək: "Bu Mehdidir, ona tabe olun."

İmam Zəhəbi yazır: "Bu rəvayətin sənədi olduqca zəifdir. Sənəddə İbrahim ibn Muhəmməd əl Ximsi vardır ki, o siqa olmamışdır." ("Mizanul itidal" c.1, səh. 63, №199)

“Əbdulvəhhab ibn əd Dəhhaq. O,mətruk ravi olmuşdur. Onu yalanda Əbu Hatim ittiham etmişdir.” (“Təğrib” №4257)

Şeyx Albani “Silsilə əd Daifə” kitabında rəvayəti zəif adlandırmışdır.

34) Əbu Nueym “Ərbain fi Mehdi”də (№7) Abdullah ibn Amrdan (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: “Mehdi Qaraət adlı kənddən çıxacaqdır.”

Rəvayətin sənədində yalançı ravi olan Əbdulvəhhab ibn əd Dəhhaq vardır.

35) Əbu Nueym “Ərbain fi Mehdi”də (№8) Huzeyfədən (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: “Mehdi mənim övladlarımdan olan adamdır. Onun üzü parlayan ulduz kimidir.”

Şeyx Albani rəvayəti “Daif əl cami”də (№5948) uydurma adlandırmış, Zəhəbi də “Mizan”da uydurma olduğunu qeyd etmişdir.

“Ravi Suri ifrat şiə olub və Ravadədən nəqllər eşitməyib.” (“Mizanul itidal” c.3, səh. 449, №7114)

36) İbn Macə “Sunən”də (№4087), Hakim “Mustədrək”də Ənəs ibn Malikdən (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu nəql etmişlər: “Biz Əbdulmutəllib oğulları cənnətdə ağalarıq: Mən və Həmzə, Əli, Cəfər, Həsən, Hüseyn, Mehdi.”

Heç bir şübhə yoxdur ki, Rasulullah (sallallahu aleyhi va səlləm) məxluqatın ən xeyirlisidir və Həsən, Hüseyn Cənnət ağalarındandırlar.

Lakin rəvayət Şeyx Albaninin (“Silsilə əd Daifə”№4688) qeyd etdiyi kimi uydurmadır. Sənəddə Əli ibn Ziyad əl Yəmami vardır ki, ”Zəvaid”də deyildiyi kimi onun siqa və münkər ravi olmasını təsdiq edən heç kəs bilinmir.

Şeyx Albani bildirir ki, daha doğrusu budur ki, bu Abdullah ibn Ziyad əl Yəmamidir. Onun haqqında Buxari deyir: “onun rəvayətləri münkərdir və o heç nədir”.

Bu rəvayəti başqa sənədlə Hatib “Tarix” kitabında və Deyləmi nəql etmişlər. Onların hər ikisi bu rəvayəti Əbu Nueym yolu ilə nəql etmişlər. Hatib rəvayətin sonunda deyir: “Bu rəvayət olduqca münkərdir və bu təsdiqlənməyib. Sənəddə bir neçə məchul ravi vardır.”

37) İmam Təbərani “Əl Ausat (№285), Bəzzar “Musnəd”, İbn Macə “Sunən”(№4088) kitablarında Abdullah ibn əl Haris ibn Cuz əz Zubeydidən rəvayət edirlər ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: “Şərqdən insanlar gələcəklər və Mehdinin çıxışına hazırlaşacaqlar.”

Şeyx Albani rəvayəti “Silsilə əd Daifə”də (№4826) zəif adlandırmışdır.

Əl Heysəmi yazır: "Sənəddə Amr ibn Cabir adlı yalançı ravi vardır. Amr ibn Cabir – Əbu Zura əl Hadrəmidir. Onun adı bütün sadalanan kitabların sənədində mövcuddur. Bununla yanaşı, sənəddə Abdullah ibn Luhey adlı zəif ravi vardır." ("Məcmauz zəvaid" №12414)

38) İbn Macə "Sunən"də (№4046) Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: "Fırat çayı qızıldan olan dağı aşkar etmədikcə qiyamət qopmaz. İnsanlar onun uğrunda vuruşacaqlar və hər 10 nəfərdən 9-u öləcək."

Şeyx Albani rəvayətin "hər 10 nəfərdən 9-u öləcək" sözlərindən başqa həsən-səhih olduğunu qeyd etmişdir.

Muttəki əl Hindi bu rəvayəti Mehdi haqqında yazdığı kitabda nəql etmiş və əlavə etmişdir ki, bunu Təbərani də Ubeydən rəvayət etmişdir. Həmçinin oxşar rəvayəti İmam Muslim də "Səhih" kitabında nəql etmişdir.

39) Muttəki əl Hindi qeyd etdiyinə görə Əli (Allah ondan razı olsun) və Aişədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: "Mehdi mənim soyumdan olan şəxsdir. Mən necə dinə görə döyüşürəmsə o da mənim sünnəmə görə döyüşəcəkdir." ("əl Burhan fi əlamətil Mehdi" səh. 38)

Nueym ibn Həmmad rəvayəti "Fitən"də (№1092) Aişədən (Allah ondan razı olsun) nəql etmişdir ki, sənəddə məchul ravi vardır."

40) Muttəki əl Hindi İbn Mandəyə istinad edərək, o da "Tarix İsfəhani"dən nəql edir ki, İbn Abbas (Allah ondan razı olsun) demişdir: "Mehdi bizim əhli beytdən olan gəncdir." ("Əl Burhan fi əlamətil Mehdi" səh. 39)

Nueym ibn Həmmad rəvayəti "Fitən"də (№1086, 1087) nəql etmişdir.

41) Nueym ibn Həmmad "Fitən"də (№642) Vəliddən rəvayət edir ki, o demişdir: "Mənə demişlər ki, Kaab demişdir: "Mehdinin çıxmasından öncə şərqdən quyruqlu ulduz gələcəkdir." Və o Şərik əl Qəazidən nəql edir ki, o demişdir: "Mənə demişlər ki, Mehdi çıxmamışdan öncə Ramazanda iki dəfə ay tutulması olacaqdır."

Eyni yerdə (№957) Mətar əl Vərraq demişdir: "Mehdi açıq aşkar Allaha küfr edilmədikcə gəlməyəcəkdir."

Muhəmməd ibn Sirindən (№958) eyni kitabda: "Hər 9 nəfərdən 7-i öldürülmədikcə Mehdi gəlməyəcəkdir."

Zuhridən (№954): "İkinci Süfyaninin idarəçiliyi zamanı səmada əlamət görünəcəkdir və bu Mehdinin əlaməti sayılacaqdır."

Əli ibn Əbu Talibdən (Allah ondan razı olsun) (№959): "Mehdi hər üç nəfərdən biri qətl edilmədikcə çıxmayacaqdır." Sənəddə məchul ravi vardır.

Eyni yerdə (№962): “İnsanlar Mehdinin ətrafında 204-cü ildə toplanacaqlar. İbn Luheyyə dedi: “Ərəblərin deyil, əcəmilərin təqvimi ilə”.

İbn Həmmad (№966) nəql edir ki, Əli (Allah ondan razı olsun) demişdir: “Fitnə olacaqdır, sonra rəhbəri əhli beytimdən olan bir şəxsin camaat olacaqdır. Ona bənzər məxluq olmamışdır. O öldürüləcək və ya öləcək, sonra Mehdi gələcəkdir.” Sənəddə məchul ravi vardır.

İbn Həmmad (№951) İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət edir: “Mehdi, günəş açıq əlamətini göstərmədikcə çıxmayacaqdır.”

Qeyd etmək lazımdır ki, İbn Nueymin nəql etdiyi bütün bu rəvayətlər Mehdi barədə dolğun məlumatlar hesab edilə bilməz. Oxucunun şahidi olduğu kimi bütün bu xəbərlər Peyğəmbərə (sallallahu aleyhi va səlləm) istinad edilmir. Gələcək insan üçün qeyb olub və olacaqdır. Məhz buna görə də, Peyğəmbərin (sallallahu aleyhi va səlləm) buyurduqlarından başqa heç bir xəbər mötəbər hesab oluna bilməz. Lakin bunlar güman və nəzəriyyə kimi qəbul oluna bilər. İstisna olaraq səhabələrdən varid olan səhih xəbərlər qəbul edilir. Çünki onlar özlərindən gələcək barədə Peyğəmbərdən (sallallahu aleyhi va səlləm) eşitmədiklərini rəvayət etməzlər.

Mehdi barədə şübhələr.

Mehdi haqqında səhih, həsən (yaxşı), zəif rəvayətləri nəql etdikdən sonra bu barədə uydurma xəbərlərə və şübhələrə də toxunmaq istərdik. İslam tarixində bir neçə dənə alim Mehdinin gəlişini inkar etmiş və hesab etmişlər ki, bu haqda olan rəvayətlərin əsli yoxdur. Güman edirəm ki, yuxarıdakı varid olan rəvayətləri oxuyan oxucu bu fikirdə olanların necə yanıldığının şahidi olmuşdur. Həmçinin Mehdi mövzusunu inkar edənləri küfrdə ittiham edənlər də tələsmişlər. Bu məsələdə xəta edənlər adətən öz iddialarını aşağıdakı dəlillərlə əsaslandırmışlar:

Şübhə: İsadan başqa Mehdi yoxdur.

Əbu Abdullah əl Qədai “Musnəd əl Şihab” (№898) və Hakim “Mustədrək” kitabında bu isnadla nəql edirlər: “Muhəmməd ibn Xalid əl Cundi – Əbban ibn Saleh – Həsən əl Bəsri – o da Ənəs ibn Malikdən (Allah ondan razı olsun) Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: “İsa ibn Məryəmdən başqa Mehdi yoxdur”.

Nueym ibn Həmmad “Sunən”də (№1108,1109, 1119) üç isnadla, həmçinin Əbu Nueym “Hilliyyətul əvliya”da (5/257) Həsən əl Bəsrinin belə dediyini nəql edirlər: “Mehdi İsa ibn Məryəm əleyhissalamdır.” İbn Əbu Şeybə bənzər rəvayəti “Musənnəf”də (№37646) nəql etmişdir.

Cavabı:

Birincisi, bu rəvayət Əllamə əs Səqanninin qeyd etdiyi kimi uydurmadır. Bunu Şəukani "Fəvaid əl məcmua"də (səh.510, №127), əl Hindi isə "Təzkirat əl məvdua"da təsbit etmişdir. Şeyxul-İslam İbn Teymiyyə "Minhəcus sunnə" (4/101, 8/256), Şeyx Albani isə "Daif əl camius saqir"də (№6348) bu rəvayəti zəif adlandırmışlar. Şeyx Muhəmməd Tuvəycari "Əl İhticac"(səh. 298) kitabında da rəvayətin olduqca zəif olduğunu bildirmişdir.

Rəvayətin sənədində Muhəmməd ibn Xalid əl Cundi vardır ki, Qurtubi "Təzkirat"da onun məchul ravi olduğunu bildirmişdir. Ət Tuvəycari deyir: "Beyhəqi dedi: "Muhəmməd ibn Xalid bu rəvayətin nəqlində tək qalmışdır. Əbu Abdullah əl Hakim dedi: "o məchul ravidir, tanınmır."

Əlavə olaraq qeyd etmək lazımdır ki, Həsən bu rəvayəti Ənəsdən (Allah ondan razı olsun) "muannən" formada, yəni bunu şəxsən Ənəsdən (Allah ondan razı olsun) eşidib-eşitmədiyini bildirmədən rəvayət etmişdir. Sənəddə digər qüsur Əbban ilə Həsən arasında mövcud olan zaman fasilədir. İmam Zəhəbi "Mizanul itidal"da (c.3, səh. 535) Əbban ibn Salehin Həsəndən rəvayət dinləmədiyini yazır.

İbn Mulaqin bənzər rəvayəti kitabında nəql etmiş və qeyd etmişdir ki, sənəddə Saleh əl Cəzrinin zəif hesab etdiyi Yəhya ibn əs Sukun adlı ravi vardır.

İkincisi, Həsəndən nəql olunan hissəyə gəlincə, əgər səhihdirsə bu sadəcə onun bu məsələdə səhv rəyi ola bilər. Bir nəfərin sözünə görə səhih hədisləri, səhabə və tabeinlərdən gələn nəqlləri tərk etmək qətiyyən yolverilməzdir.

Mucahiddən varid olan rəvayət zəifdir. Bunu Leys ibn Əbu Suleym adlı ravi nəql etmişdir ki, Nəsai və İbn Muinin sözlərinə görə zəif ravidir. Bunu Zəhəbi "Muğni fi duafa"da (№5126) qeyd etmişdir.

Şübhə: Mehdi peyğəmbərlərdən üstündür?

İsanın (aleyhis salam) Mehdinin arxasında namaz qılacağı rəvayətləri işığında bəziləri onun İsadan (aleyhis salam) üstün olduğunu söyləmişlər.

Təkzib:

Birincisi, bir kimsəni peyğəmbərlərdən üstün hesab etmək küfrdür.

Şeyx Osman ibn Muhəmməd əl Xamis Əhli Sünnə əqidəsinə görə bir şəxsin fəzilətdə istənilən şəxsi peyğəmbərlərdən üstün görməsinin küfr olduğunu deyir.

Əl Qazi əl Yad əl Maliki "Şifa" (2/286) kitabında yazır: "Bu qayda ilə biz qulati rafizilərin "imamlar peyğəmbərlərdən üstündür" sözlərinə görə onları kafir bilirik."

İsanın (aleyhis salam) Mehdinin arxasında namaz qılması onun peyğəmbərdən üstün olmasına dəlil deyildir. Muhəmməd Əhməd İsmail əl Muqaddəm yazır: "Şəriətdə namazda özündən əfzəl insanın önündə imamlıq edilməsi caizdir." ("əl Mehdi"səh. 58)

Tirmizi "Sunən"də (№362,363) Ənəs (Allah ondan razı olsun) və Aişədən (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbərin (sallallahu aleyhi va səlləm) xəstəliyi ərəfəsində Əbu Bəkrin (Allah ondan razı olsun) arxasında namaz qılmışdır."

Tirmizi Ənəsin (Allah ondan razı olsun) rəvayətini həsən-səhih, Şeyx Albani isə səhih adlandırmışdır. Aişədən (Allah ondan razı olsun) varid olan hədisi Tirmizi həsən-səhih (qərib), Albani isə səhih adlandırmışdır. İsa peyğəmbərin (aleyhis salam) bu ümmətdən olan imamın arxasında namaz qılmasında bir incəlik vardır. Bununla ona işarə olunur ki, İsa (aleyhis salam) Muhəmməd (sallallahu aleyhi va səlləm) şəriətinin davamçısı və ona tabe olan şəkildə zühur edəcəkdir.

Şübhə: Mehdini inkar edən küfr etmiş olur.

İbn Hacər əl Heysəmi "Əl Qavlul muxtəsər fi əlamətil Mehdi əl muntəzar" kitabının müqəddiməsində rəvayət nəql edir: "Dəccalı və Mehdini inkar edən küfr etmiş olur."

O, bu rəvayəti Əbu Bəkr əl İskafın "Fəvaidil ənbar" və Əbul Qasim əs Suheylinin "Şərhus siyər" kitabına istinad edərək nəql etmişdir. Təəsüf ki, İbn Hacər əl Heysəmi bu rəvayətin tədqiqi və təkzibi haqqında heç bir söz söyləmədən kitabında qeyd etmişdir.

Təkzib:

Şəmsulhaqq əl Əzimabadi qeyd etdiyi kimi, bu rəvayəti Muhəmməd ibn əl Munqədir, o da Cabirdən rəvayət etmişdir ki, bu uydurmadır və bunda təqsirkar kitabın müəllif Əbu Bəkr əl İskafdır." ("Əunul məbud şərhus sunan Əbu Daud" c.11, 4278-ci rəvayətin şərhi)

Oxşar rəvayəti İbn Hacər əl Əsqalani "Lisanul mizan" (5/130) kitabında Muhəmməd ibn Həsən ibn Əli ibn Rəşid əl Ənsarinin tərcümeyi halında qeyd etmişdir. İbn Hacər yazır: "Bu rəvayət Kələbazinin "Əl Məanil əhbər" kitabında mövcuddur, uydurmadır ki, bunu Rəşid əl Ənsari isnadları ilə birgə Cabirdən (Allah ondan razı olsun), o da Peyğəmbərdən (sallallahu aleyhi va səlləm) rəvayət etmişdir:

"Kim Mehdinin və İsanın gəlişini inkar edərsə, Muhəmmədə göndərilənə küfr etmiş olar. Kim də xeyrin və şərin qədərdən olmasını inkar edərsə, Muhəmmədə göndərilənə küfr etmiş olar. Cəbrayıl mənə dedi ki, Allah buyurub: "Kim xeyrin və şərin qədərdən olmasını inkar edərsə, Məndən başqa özünə digər ilah seçmiş olar."

Şeyx Albani hədisi "Silsilə əd Daifə"də (№1082) uydurma adlandırmışdır.

Şübhə: Mehdinin səhabələrdən üstünlüyü.

Əbu Bəkr və Ömər kimi səhabələri Mehdi fəzilətdə keçirmi?

İbn Adiy "əl Kamil fi duafa ər rical" (6/440) kitabında Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu rəvayət edir: "Axır zamanda xəlifə olacaqdır. Əbu Bəkr və Öməri ondan üstün tutmayın."

Təkzib:

Əbdurrahmən ibn Cəuzi "əl Məvdua min əhadis əl mərfua" (3/476) kitabında yazır: Bu rəvayət uydurmadır. Bunu Aufdan Muamildən başqa heç kəs nəql etməmişdir. Əbu Hatim dedi: "o rəvayətlərdə zəifdir." İbn Adiy dedi: "onun əksər rəvayətləri hifz olunmayıb." Sənəddə digər ravi Əbu Yəhya əl Vəqara – onun adı Zəkəriyyə ibn Yəhya idi. Saleh Cəzri dedi: "o yalançılardandır." İbn Adiy onun rəvayətlər uydurduğunu qeyd etmişdir. Dəraqutni isə onun tərk olunmuş ravi olduğunu demişdir."

Dəraqutni "İlal"(sual 1839) kitabında bu rəvayət haqqında deyir: "Muvammil ibn Əbdurrahmən əs Səqafi, Aufdan, o İbn Sirindən, o da Əbu Hureyradan Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu rəvayət edir." O, bu rəvayəti Peyğəmbərə (sallallahu aleyhi va səlləm) isnad etməkdə xətaya yol vermişdir. Bu sözlər daha doğrusu İbn Sirinə aiddir."

İbn Cəuzinin sözlərindən anlaşılan odur ki, rəvayətin İbn Sirinə qədər hissəsi səhih deyil.

İbn Əbu Şeybə "Musənnəf" (№37650), Əbu Amr əd Dani "Sünən"də bu rəvayəti İbn Sirindən digər sənədlə nəql etmişlər: Auf – İbn Sirin.

Auf bu Əbu Səhl Auf ibn Əbu Cəmilət əl Ərabidir. Onun zəif olmasını deyən alimə rast gəlinməyib."Mizanul itidal"da onun tərcümeyi halında Abdullah ibn Mubarək onun haqqında deyib: "Allaha and olsun! Auf bir bidətlə kifayətlənmədi. Onda iki bidət var idi, o həm qədəri, həm də şiə idi."

Elə orada Muhəmməd ibn Abdullah əl Ənsaridən: "Mən Daud ibn Əbu Hənadın Aufu vuraraq belə dediyini eşitdim: "vay olsun sənə ey qədəri!"

Yenə eyni yerdə Bindar dedi: "Allaha and olsun! Auf qədəri, rafizi və şeytani olub!" ("Mizanul itidal" c.3, səh. 305, №6530)

İki şeyxdən başqasını üstün görən tabeinin rafizi olması kifayətdir ki, bu rəvayət şübhə doğursun.

Şübhə: Muhəmməd ibn Sirin və Mehdinin peyğəmbərlərdən üstün olması.

Nueym ibn Həmmad "Fitən"də (№1036) nəql edir ki, İbn Sirin yaxınlaşan fitnəni xatırladaraq dedi: "Fitnə gəldikdə Əbu Bəkr və Ömərdən üstün olanları eşitmədikcə

evlərinizdən çıxmayın.” Ona dedilər: “Əbu Bəkr və Ömərdən üstün olan?” O dedi: “Hətta bəzi peyğəmbərlərdən də üstün.”

Təkzib:

Oxucu şahid oldu ki, burada Nueymin kitabından Peyğəmbərdən (sallallahu aleyhi va səlləm) bir dənə də rəvayət nəql olunmadı. Nueym ibn Həmmad Zəhəbinin qeyd etdiyi kimi, rəvayətlərdə yumşaqlığı ilə tanınan alimlərdən biri olmuşdur. Onu İmam Əhməd, İbn Muin, İcli kimi alimlər mötəbər qəbul etmişlər. Nəsai onun zəif olduğunu qeyd etmişdir.

Zəhəbi yazır: “O, mötəbər ravilərdən münkər rəvayətlər nəql edərdi.” (”Mizanul itidal” c.4, səh. 267, №9102)

Əl Xatib Bağdadi “Tarix Bağdad” (13/312) kitabında Nueymin tərcümeyi halında Nueymin İbn Mubarəkdən rəvayət etdiyi nəqli gətirir, sonra deyir: “Bu rəvayətin əsli yoxdur və bu İbn Mubarəkin sözü kimi tanınmır. Mən bilmirəm bunu Nueym hardan çıxarmışdır. Nueym yaddaşına görə nəqllər edərdi və onda çoxlu münkər rəvayətlər var ki, onlar tərk olunub.”

“Nueym bu rəvayəti Dəmr ibn Rabiədən nəql etmişdir ki, o xəta edən siqa ravi olmuşdur.” (İbn Hacər “Təqrib” №2988)

Nueym həmçinin İbn Sirinin Mehdi haqqında sözünü nəql edir: “O, iki şeyxdən fəzilətli və peyğəmbər kimi adil olacaqdır.”

Rəvayətin sənədi belədir: “Nueym – Yəhya (ibn Abbad) - əs Sari ibn Yəhya – İbn Sirin.

Yəhya ibn Abbad bu Əbu Abdullah əd Dabbidir. Əli ibn Mədini dedi: “Yəhya ibn Abbad o kəslərdəndir ki, ondan nəqllər edilmir və Bəşər əl Həffaf da onun kimi zəifdir.” (İbn Hacər “Təqrib” №674)

Zəkəriyyə əs Səcdi qeyd edir ki, o, rəvayətlərdə zəifdir. İbn Hibban onu siqa hesab etmişdir.

Şübhə: Mehdi Abbas ibn Əbdulmutəllibin soyundan olacaqdır.

Dəraqutni “Əl Əfrad” kitabında Osmandan (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu aleyhi va səlləm) belə buyurduğunu rəvayət edir: “Mehdi əmim Abbasın soyundan olacaqdır.”

“Tarix Bağdad”da Əmmardan (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) Abbasa dedi: “Allah bu işi mənimlə açdı və sənin övladlarından biri ilə bağlayacaqdır. O, yeri ədalətlə dolduracaq və İsa onun arxasında namaz qılacaqdır.”

İbn Cəuzi “İləl əl Mutənahiyyə” kitabında oxşar rəvayəti İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurmuşdur: “Həqiqətən Allah

İslamı mənimlə başlatdı və onu sənin övladlarından biri ilə bağlayacaqdır. O, namazda İsa ibn Məryəmin önündə duracaqdır."

Əbu Nueym "Hilliyyətul əvliyyə"də (1/315) Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) Abbasa dedi: "Sənə müjdə verimmi, ey Əbul Fədl!? Abbas dedi: "Əlbəttə, ya Rasulullah."

Peyğəmbər (sallallahu aleyhi va səlləm) buyurdu: "Həqiqətən Allah Təala bu işi mənimlə açdı və sənin soyundan olan biri ilə bağlayacaqdır."

Hakim "Mustədrək"də (№8568), Abdullah ibn Əhməd "Fədailus səhabə" (№1891), İbn Əbu Şeybə "Musənnəf" (№37624) və Xatib Bağdadi "Tatixi Bağdad" (№1891) İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət edirlər ki, o demişdir: "Biz Əhli beytdən dörd nəfərdir: Səffaf bizdəndir, Munzir bizdəndir, Mənsur bizdəndir, Mehdi bizdəndir."

Təkzib:

Birinci rəvayət səhih deyil. Şeyx Albani onu uydurma adlandırmışdır. Zəhəbi qeyd edir ki, bunu Muhəmməd ibn əl Vəlid adlı ravi uydurmuşdur." ("İləl" səh. 316)

İbn Adiy deyir: "Muhəmməd ibn əl Vəlid əl Muqri rəvayətlər, mətnlər və sənədlər uydurardı. İbn Əbu Muaşar onu yalançı adlandırmışdır. Əs Səmhudi dedi: "Muhəmməd ibn əl Vəlid yalançıdır." (Munəvi "Feyz əl qədir" c.6, səh. 278, №9242)

İkinci rəvayət də səhih deyil. "Sənəddə Əhməd ibn əl Həccac ibn əs Salt adlı ravi vardır. Onda məchulluq vardır. Şeyx Albani rəvayəti uydurma adlandırmışdır." ("Silsilə əd Daifə" №81)

Üçüncü rəvayət də doğru deyil. "Sənəddə Əbdussaməd ibn Əli vardır. Onu Ukeyli zəif hesab etmişdir. Sənəddə həmçinin atası Nuh ibn Səiddən nəql edən Muhəmməd ibn Nuh vardır. Zəhəbi yazır: "Muhəmməd ibn Nuh Mehdi haqqında uydurma rəvayətləri məchul ravi olan atasından, yəni İbn Səiddən nəql edərdi." ("Mizanul itidal" c.4, səh. 57, №8273)

Dördüncü rəvayət də doğru deyil. "Sənəddə Ləhz ibn Cəfər ət Təmimi vardır. İbn Adiy onun haqqında: "Bağdaddandır, məchuldur, siqa ravilərdən münkər rəvayətlər nəql edərdi. Sənəddə həmçinin Əli ibn Zeyd ibn Cadən vardır. Rafizilərdən olan zəif ravidir." ("Silsilə əd Daifə" №82)

Beşinci rəvayət İbn Abbasdandır. Hakimin sənədində İsmail ibn İbrahim ibn əl Muhacir adlı ravi vardır. Zəhəbi yazır: "İbrahim yekdil rəyə görə zəifdir, atası isə tanınmır. Əbu Şeybənin və Abdullah ibn Əhmədin sənədində Fudeyl ibn Mərzut adlı ravi vardır. Alimlərin onun haqqında rəyləri müxtəlifdir. Onu Osman ibn Səid və Nəsai zəif hesab etmişlər. İbn

Hibban onun rəvayətlərinin olduqca münkər olduğunu bildirmişdir. O, siqa ravilərdən nəqllər edərkən xətalara yol verərdi." ("Mizanul itidal" c.3, səh. 362, №6772)

Xatib Bağdadinin rəvayətinin sənədinə gəldikdə isə beşinci cilddə rəvayət İbn Mərzuqdan varid olur. Onuncu cilddə Xatib bunu Abbasi xəlifələrinin isnadı ilə rəvayət edir. Onlar haqqında rical kitablarında məlumat yoxdur.

Birinci cilddə ki, rəvayətin sənədi belədir: Əli ibn Əhməd ər Rəzzaz (siqa ravidir) – Əhməd ibn Salman əl Fəqih (İraqın şeyxi) – Əbu Kilabə ər Rəqqaşi (yaddaşı zəif olan siqa ravidir) – Əli ibn əl Cadd (şiə olan siqa ravidir) – Zuheyr ibn Muaviyyə (siqa ravidir) – Meysəra ibn Həbib (siqa ravi) - əl Minhəl ibn Amr (bəzən səhv edən siqa ravi) – Səid ibn Cubeyr (İmam) – İbn Abbas ("Təğrib" №4698).

Əbu Kilabə Bağdada köçərkən yaddaşını itirmişdi və ondan bunu Bağdadda yaşayan digər ravi nəql edir. Əgər bu rəvayət səhihdirsə, onda ehtimal var ki, söhbət axır zaman Mehdidən deyil, Abbasilərdən olan Mehdidən gedir. Həmçinin mümkündür ki, Mehdi qohumluq baxımından Abbasilərdən olsun. Həmçinin, İbn Abbas "Mehdi bizdəndir" deməklə özünün də daxil olduğu Peyğəmbərin (sallallahu aleyhi va səlləm) əhli beytini nəzərdə tuturmuş.

Beyhəqi "Dəlail ən Nubuvə" kitabında bənzər rəvayəti İbn Abbasdan (Allah ondan razı olsun) Peyğəmbərə (sallallahu aleyhi va səlləm) isnad edərək rəvayət etmişdir. İbn Hacər "Lisanul mizan" (5/340) kitabında bu rəvayəti münkər adlandırmışdır.

Sənəd zəif və qopuqdur. Burada tanınmış müdəllis olan Əmaş adlı ravi vardır ki, onun nəqlləri şübhəlidir.

İbn Abbasdan rəvayəti nəql edən Dəhhaq ibn Muzəhimi, Yəhya əl Qəttan və Şubə ibn əl Həccac zəif, İbn Muin və Əhməd isə siqa ravi hesab etmişlər." ("Muğni fi duafa" №2912)

Dəhhaq İbn Abbasdan nəqlləri şəxsən eşitməyib.

İbn Əsakir Əbu Səiddən oxşar rəvayəti "Tarix" kitabında nəql etmişdir: "Qaim bizdəndir, Mənsur bizdəndir, Səffah və Mehdi bizdəndir..."

Zəhəbi qeyd edir: "rəvayət olduqca münkərdir. Sənəddə Muhəmməd ibn Cabir əl Yəmami əs Suheymi vardır. Onu Nəsai, İbn Muin və Buxari zəif hesab etmişlər. ("Mizanul itidal" c.3, səh. 496, №7301)

Daha doğrusunu Allah bilir.

Üçüncü fəsil

Mehdi tarixdə

Tarix boyunca çoxsaylı firqələr, cərəyanlar və ayrı-ayrı şəxslər Mehdilik fikrindən geniş sui-istifadə etmişlər. Şiə tarixçisi Pur Seyyid Ağai yazır: "Nümunə olaraq bir sıra cahillər Əlinin (Allah ondan razı olsun) oğlu Muhəmməd Hənəfiyyənin, Muhəmməd ibn Abdullah ibn Həsənin, İmam Cəfər Sadiqin, İmam Kazımın, İsmail ibn Cəfərin, İmam Baqirin və Həsən Əsgərini Mehdi hesab etmişlər." ("Qeyb dövrünün tarixi"səh. 189)

Mehdi fikrini ilk olaraq öz məqsədləri üçün istifadə edən firqə Səbailər olmuşdur.

"Amr ibn Şurəhbil əş Şəbidən rəvayət olunur ki, Abdullah ibn Səbaya dedikdə ki, Əli ölüb, o dedi: "Əgər sən onun başını səbətdə gətirsən belə, biz onun ölümünü qəbul etməyəcəyik." Bu Əli ibn Əbu Talibin Mehdi olduğunu iddia edən ilk firqə idi." (Bağdadi "əl Fərq beynəl firaq"səh 178; Türkiyə)

İbn Abil əl Hənəfi İmam Təhəvinin "Əqidə" kitabının şərhində yazır: "Münafiqlərdən uzaq olun" dedikdə Rafiziliyi yaradan münafiq və zındıq nəzərdə tutulur. Bu adamın məqsədi İslamı məhv etmək, Peyğəmbəri (sallallahu aleyhi va səlləm) alçaltmaq olub. Alimlər bunu belə izah edirlər:

"Abdulla ibn Səba İslamı qəbul edib, onu hiylə ilə məhv etmək istədi. O, İslama Pavelin Xristianlğa vurduğu zərbə kimi zərbə vurmaq istədi. İlk öncə o özünü təqvalı insan kimi görsətməyə çalışdı. Xeyrə dəvət edib münkərdən çəkindirmək adı ilə o, Osmanın Xilafəti zamanı fitnə qaldırdı və insanları onu öldürməyə çağırdı. Sonra o Kufəyə gələrək Əlini ucaltmağa başladı." ("Təhavi əqidəsinin şərhi" səh. 420-421, Quraba, 2002)

Muhəmməd Əbdül-Kərim Şəhristani yazır: "İbn Səba Əlinin İlahi İmaməti haqqında iddia edən ilk şəxs olub." ("Dinlər və firqələr" Şəhristani səh 137, Moskva, 1999)

Şəhristani yazır: "Abdulla ibn Səbanın ətrafında bir dəstə insanlar toplandı. Bu ilk firqə idi ki, zühuru, qeybdə olmağı və İmamların geri qayıdacağına iman edirdilər." ("Dinlər və məzhəblər tarixi" səh. 137, Moskva, 1999)

Daha sonra Rafizi firqəsi olan Keysanilər bu iddiada oldular. İmam Əbdulhaqir əl Bağdadi yazır: "Onlardan Keysanilər çoxlu firqələrə ayrıldılar, sonunda iki əsas dəstəyə bölündülər. Bir firqə Muhəmməd ibnul Hənəfiyyənin ölmədiyini, yaşadığını və geri döncəyini iddia etdilər. Onlar onun Qaim Mehdi olduğunu iddia edirdilər." ("əl Fərq beynəl firaq"səh. 19; Türkiyə)

Şiə tarixçisi Həsən ən Növbəxti yazır: "Digər firqə iddia edirdi ki, Muhəmməd ibnul Hənəfiyyə Mehdidir və Əli ibn Əbu Talibin vəsisidir." (Növbəxti "Firaquş şia" səh. 131; "Nauka" nəşr.evi)

Şiə alimi Növbəxti yazır: “Onları Keysani ona görə adlandırırdılar ki, onların rəhbəri Keysan ləqəbi ilə tanınan əl Muxtar ibn Əbu Ubeyd əs Səqafi idi. Məhz o İmam Hüseynin (Allah ondan razı olsun) qisasını almağa çağıran şəxs olub. Onun qatillərini və çoxlu digər insanları öldürən də məhz odur. O iddia edirdi ki, bunu ona Muhəmməd ibn Hənəfiyyə əmr edib və o atasından sonra İmamdır. Muxtar “Keysan” ləqəbini onun süvari dəstəsinin əmiri Əbu Amrın adından götürmüşdür. Bu Əbu Amr Muxtardan da söz, əməl və qətllərdə ölçüsüz idi. O iddia edirdi ki, Muhəmməd ibn Hənəfiyyə atası Əli ibn Əbu Talibin vəsiyyətinin icraçısıdır və imamdır. Muxtar isə onun naibi və elçisidir. O, Əliyə (Allah ondan razı olsun) qarşı olan və döyüşən hər kəsi küfrdə ittiham edirdi. O, Cəbrayılın Muxtara vəhy gətirdiyini iddia edirdi.” (Növbəxti “Firaq uş şia” səh. 128-129)

Əbdulhaqir əl Bağdadi yazır: “Muxtarın əməlləri İbnul Hənəfiyyəyə çatdıqda o insanların dində fitnəyə düşəcəklərindən qorxdu. O, qərara gəldi ki, tərəfdarlarını toplamaq üçün İraqa getsin. Bu xəbər Muxtara çatdıqda o əlində olan iqtidarın itəcəyindən ehtiyatlandı və əsgərlərinə dedi: “Bizim Mehdiyə beyət etməyimiz haqqdır. Lakin Mehdidə bir xüsusiyyət vardır. Onu qılıncla vurduqda zərbə onun dərisinə zərər vurmur və kəsmir.” Bu xəbər Muhəmməd Hənəfiyyəyə çatdıqda o, Kufəyə getmək fikrindən ona olunacaq qəsd dolayısı ilə daşındı və Məkkədə qaldı.” (“Əl Fərq beynəl firaq”səh.37; Türkiyə)

İbnul Hənəfiyyəni Mehdi adlandırın digər firqə isə onun vəfatından sonra yarandı. Növbəxti yazır: “Bir firqə Muhəmməd ibnul Hənəfiyyənin Mehdi olmasını təbliğ edir və Əlinin (Allah ondan razı olsun) onu Mehdi adlandırmasını iddia edirdi. Onlar: “O ölməyib, ölməyəcək, ölməsi mümkün deyil, fəqət o hardasa gizlənir və bu hamıdan gizlidir.” Bu İbn Kərbanın davamçılarının iddiası idi ki, onları “Kərbitilər” adlandırırdılar.” (Növbəxti “Firaquş şia” səh. 132)

Bağdadi onlar haqqında deyir: “Onları “Kərbiə” adlandırırdılar. Onlar Əbu Kərba əd Dəriranın tərəfdarları idilər ki, Muhəmməd ibnul Hənəfiyyənin sağ olub, ölmədiyini iddia edirdilər. Onlara görə, o Rədva dağındadır və orada onun yanında bulaq suyu və bal var ki, onunla qidalanır. Onun sağında aslan,s olunda isə panter var ki, onun zühuruna qədər onu qoruyacaqlar. Məhz o Qaim Mehdidir.” (“əl Fərq beynəl firaq”səh 31-32; Türkiyə; Əbul Həsən əl Əşari “Məqalətul musallin” səh. 50)

Qeyd etmək lazımdır ki ,bu şiə firqələri əllərində olan rəvayətlərə əsaslanırdılar.

“Daha sonra Zeydi şiələrinin Carudilər firqəsi iddia etmişdi ki, Nəfsu Zəkiyyə adı ilə tanınan Muhəmməd ibn Abdullah ibn Həsən ibn Həsən ibn Əli ibn Əbu Talib öldürülməyib və o gözlənilən, yəni qaim Mehdidir ki, qayıdacaq və dünyaya sahib olacaqdır.” (“Əl Fərq beynəl firaq”səh. 27)

“Əl Muğira ibn Səid ibn İcli öz yoldaşlarına deyirdi: “Həqiqətən Muhəmməd ibn Abdullah ibn Həsən ibn Həsən ibn Əli ibn Əbu Talib gözlənilən Mehdidir.” O, Nəfsu Zəkiyyənin və atasının adlarının Peyğəmbər (sallallahu aleyhi va səlləm) və atasının adları ilə eyni olmasını dəlil olaraq göstərirdi.” (həm.yer, səh. 43)

Onun tərəfdarları Muğirilər adlanırdı.

“Nəfsu Zəkiyyənin ölümündən sonra əl Miğiranın tərəfdarları onun haqqında fikir ayrılığına düşdülər. Bir qismi onu yalanda ittiham edib Nəfsu Zəkiyyənin Mehdi olmasını inkar edərək ondan ayrıldılar. Digər qismi isə onun tərəfdarları olaraq qaldılar və dedilər: “O, Muhəmməd ibn Abdullah ibn Həsənin həqiqi Mehdi olmasını doğru söyləmişdir. Lakin imam öldürülməyib, əksinə Hacir dağında yenidən geri qayıdana kimi gizlənmişdir. O, zühur etdikdə Məkkədə ona beyət edəcəklər. O, 17 adamı dirildəcək və hər birinə Allahın böyük adlarından bir hərf verəcəkdir və onlar düşmənləri məhv edib dünyaya sahib olacaqlar.” (həm.yer, səh. 184)

Növbəxti yazır: “Mehdilik iddiasında olan digər şiə firqəsi Navusilər olmuşdur. Onlar İmam Cəfərin ölümünü inkar edirdilər və hesab edirdilər ki, məhz Cəfər ibn Muhəmməd həqiqi Mehdi idi.” (Növbəxti “Firaquş şia” səh. 161)

“Daha sonra Yəhya ibn Şumeytənin ardıcılları olan Şumeytiyyə firqəsi gəlir. Onlar İmam Cəfər Sadiqin ölümünə etiqad edirdilər və növbəti imamın Muhəmməd ibn Cəfər olduğunu iddia edirdilər. Onlar deyirdilər ki, Mehdi onun övladlarından olacaqdır. Musaviyyə adlı şiə firqəsi iddia edirdi ki, növbəti imam Cəfər Sadiqdən sonra onun oğlu Musa ibn Cəfərdir. Onlar Musanın ölümünü inkar edir və iddia edirdilər ki, o, gözlənilən Mehdidir. Onlar deyirdilər: “O, Rəşidin evinə girib, ordan çıxmamışdır. Biz onun İmamlığını gözləyir və onun ölümünə inanmırıq. Ona görə biz onun ölümünü açıq-aydın dəlil olmadan qəbul etməyəcəyik.” (“Əl Fərq beynəl firaq”, səh. 46-47)

“Mehdi fikri Qarmatilər firqəsində də hakim idi ki, onlar öz aralarından Mehdinin çıxmasını gözləyirdilər. Qarməti Suleyman ibn Həsən bu iddia ilə həccə gedən hacılara hücum edib onları amansızca qətl etdi. Sonra Məkkəyə daxil olub Kəbə evinin pərdəsini və qara daşı söküb, bir çox hacıları qətl edib, onların cəsədlərini Zəm-zəm quyusuna atdı.” (“Əl Fərq beynəl firaq”, səh. 223)

Tarixdə həmçinin Məğrib Mehdisi məşhurdur. Bu Muhəmməd ibn Tumərt adlı kəzzab, zalım və fasiq bir adam idi. O, hicri 485-ci ildə doğulub, 524-ci ildə ölmüşdür.

Muhəmməd Abdulhəyy əl Qəttani kitabında yazır: “Bizim kitabxanada Mehdi ibn Tumərt tərəfindən 588-ci ildə yazılmış “Muvatta” və “Əmali” kitabı vardır. Mən orada Əbu Yaqub Yusif ibn Əbdulmumininə möminlərin əmiri kimi müraciət edilməsinin şahidi oldum. ”Muvahhidilər” dövlətində o zaman bu adi bir şey idi. Onlar imamları İbn Tumərtin məsumluğu və Mehdi olması barədə iddialar irəli sürmüşdülər.” (“Ət Təratibul idariyyə”c.1, səh. 140)

“Bu adamın müsəlman ümməti üçün fəsadı zalım Həccac ibn Yusifdən də betər idi. O, insanları vəhşicə öldürər, müsəlman qadınları qul hesab edər, uşaqlarını əsir aparar və mallarını mənimsəyərdi. Böyük qəbir qazdıraraq o bəzi tərəfdarlarına ora uzanmağı əmr edər, onlar da insanlara İbn Tumərtin Mehdi olmasını söyləyərdi. Daha sonra onları artıq şahid olmasın deyə öldürərdi.” (“əl Mənarul munif fis səhih və daif” səh. 99)

Tarixdə həmçinin Ubeydullah ibn Meymun əd Qəddah adlı bidətçi məşhurdur. Onun babası məcusi ailəsindən olan yəhudi idi. O, Əhli beytə olmazın yalanlar və uydurmalar isnad edərdi. Özünün isə Peyğəmbərin (sallallahu aleyhi va səlləm) xəbər verdiyi Mehdi olmasını iddia edərdi.

“Həmçinin hicri 103-cü ildə ölmüş Musa ibn Təlha ibn Ubeydullah var ki, insanlar onun Mehdi olduğunu iddia edirdilər. Halbuki, onun belə dediyi bilinmir. Hişam ibn Əbdulməlikin xilafəti zamanı Xorasan valisinə qiyam qaldırmış Xalid ibn Sureyci də (öl.128) misal göstərmək olar. Bəziləri də hesab edirdi ki, Mehdi Abbasilərin üçüncü xəlifəsi Mehdi ibn əl Mənsurdur.” (Muhəmməd Əhməd İsmail əl Muqaddəm “əl Mehdi” səh 382-384)

Onlar Mehdinin Abbas oğullarından çıxması rəvayətlərinə əsaslanırdılar.

Tarixçi Aydın Əlizadə yazır: “Mehdiçilik fikrindən İsmaililər firqəsi də məharətlə istifadə etmişdir. Onlar öz fikirlərini Abbasi xəlifəsi Mutəmidilləhin (256-279) zamanında yaymağa başladılar. Bu fikir Xəlifə Mutədid billəh (279-289) və Muktəfi billəhin (289-295) dövründə geniş yayıldı və xilafətin əksər bölgələrinə yayıldı. Nəhayət, xəlifə Muqtədir billəhin dövründə hicri 297-ci ildə onlar Afrikada dövlət yaratmağa müyəssər oldular. Abbasilərə əks olaraq İsmaililər əmirlərini xəlifə adlandırmağa başladılar. Birinci Fatimi xəlifəsi Ubeydullah əl Mehdi olmuşdur ki, özünü qaim Mehdi adlandırmışdır. O, Qeyruanada Raqqadə bölgəsində məskunlaşdı. Hicri 304-cü ildə Mehdiyyə şəhərinin əsasını qoyaraq paytaxtını ora köçürtdü. O, hicri 322-ci ilə kimi hakim oldu. Sonra oğlu Nizar Əbul Qasim əl Qaim xəlifə oldu.” (Aydın Əlizadə “Müsəlman dövlətlərin tarixi”)

Tarix boyu Mehdi fikrindən sui istifadə edənlər çox olmuşdur. Biz sadəcə tanınmışları qeyd edirik.

Hindistan Mehdisi Muhəmməd Caunpuri (1443-1505) öz soyunu İmam Musa Kazıma isnad edirdi. Deyirlər ki, o üç dəfə özünü insanları ətrafına toplamaqla Mehdi elan etmişdir. Bir dəfə Məkkədə, iki dəfə isə Hindistanda.

İmam və sufilərin rəhbəri Əhməd ibn Əbi Məhalli (1559-1613) 1610-1613-cü illər arasında Sadi sülaləsinə qarşı Mərakeşin cənubunda sufilərin qiyamına rəhbərlik etmişdir. O qeyd olunduğuna görə, özünü Mehdi elan etmişdi.

Cakarta sultanının oğlu şəhzadə Diponeqro (1785-1855) işğalçılara qarşı mübarizə aparan İndoneziyanın milli qəhramanı olub.

Əli Muhəmməd əş Şirazi əl Bab (1819-1850) Bəhaizmin banisi, bidətçi və kafir. 1844-cü ildə özünü Mehdi elan etmişdir.

Mirzə Qulam Əhməd əl Qədyani (1835-1908) Əhmədiyyə dininin yaradıcısı olan kafir. Özünü Mehdi elan etməklə İsanın (aleyhis salam) zühuruna da iddialı idi.

Sudandan olan Mehdi. 1844-cü ildə Misir Sudanında anadan olmuş Muhəmməd ibn Əhməd ibn Səid Abdullah. O, "səmaniyyə" təriqətinə üzv olmuş, 1870-ci ildə Abba adasına gedərək zahidliyə çəkilmişdi. 1880-ci idlə Muhəmməd ibn Əhməd birinci dəfə Mehdilik iddiasında olmağa başladı. O, qiyam qaldıraraq kafirlərə cihad elan etdi. Misirlilər üzərində bir neçə qələbədən sonra o, Sudanda hakimiyyəti ələ aldı. O, 1885-ci ildə Omdurmanda öldü və Abdullah ət Taişini yerinə varis təyin etdi.

Suleyman əl Uteybi ilə birgə 1979-cu ildə Məkkəni ələ keçirən Muhəmməd ibn Abdullah əl Qəxtanini də qeyd etmək lazımdır. Deyilir ki, guya əl Qəxtaniyə yuxuda Peyğəmbər (sallallahu aleyhi va səlləm) gəlib, ona Mehdi olmasını söyləmişdir.

Dördüncü fəsil

İmamilərin Mehdisi

Göründüyü kimi, Mehdi fikri ən çox tarixdə məhz şiələrə təsir etmişdir. Bu fəsildə biz Şiə İmamilərin nəzərində olan Mehdidən bəhs edəcəyik.

Şiə İmamilər etiqad edirlər ki, Peyğəmbərdən (sallallahu aleyhi va səlləm) sonra ümməti Əhli beytdən olan 12 nəfər idarə etməlidir.

1 – Əli ibn Əbu Talib

2 – Həsən ibn Əli

3 – Hüseyn ibn Əli

4 – Əli ibn Hüseyn - Zeynəlabiddin

5 – Muhəmməd ibn Əli, Baqir

6 – Cəfər ibn Muhəmməd, əs Sadiq

7 – Musa ibn Cəfər

8 – Əli ibn Musa

9 – Muhəmməd ibn Əli

10 – Əli ibn Muhəmməd

11 – Həsən ibn Əli

12 – Mehdi ibn Həsən

Bu şəxslərin ilahi imamətinə etiqad etmək imamilərin etiqadının başlıca hissəsidir. Şiələr 12 İmamdan birinin imamətini inkar edən hər kəsi təkfir etmişlər. Şiə alimi Muhəmməd Rza Müzəffər yazır: "Hər kim ki, müctəhidi qəbul etmir və inkar edir İmamı inkar edən, eləcə də Allahı inkar etmiş kimidir. Bu İmam Sadiqin sözlərinə görə müşrikliyə və Allahın birliyini inkar etməyə bərabərdir." (Muhəmməd Rza Müzəffər "Şiəlik baxımından əqidəvi suallar" səh. 15)

Ayətullah Seyyid Abdullah ibn Mühəmməd Rza Müsavi Şubbar deyir: "İmamlara (aleyhis salam) müxalif olanların (yəni əhli-sünnənin) küfrünə dəlalət edən rəvayətlər və xəbərlər mövcüddur, onları cəm etmək üçün müstəqil bir kitaba ehtiyac var. Müxaliflərin küfrünə hökm verən xəbərləri və İmamların onlarla rəftarını vəsf edən rəvayətləri cəm etsək (yəni İmamların müxaliflər ilə münasibəti və ünsiyyəti olub), zəruri olaraq deməliyik ki, İmaların müxalifləri kafirdilər və axirətdə cəhənnəmdə olacaqlar" ("Camiə-Kəbirə" ziyarətinin şərhi" səhifə 124-125, Azərbaycan dilində)

Bu məsələdə çox dayanmaq istəməzdik. Əlavə məlumat üçün oxucu http://www.2shared.com/file/nzm4CN22/iliyin_sas-mamt_v_onun_inkar.html linkinə müraciət edə bilər.

Hər dəfə bu 11 şəxsin vəfatından sonra onların tərəfdarları olan şiələr varis məsələsində çoxsaylı firqə və dəstələrə ayrılırdılar.

Növbəxti yazır: "İmam Hüseynin şəhadətindən sonra şiələr üç firqəyə bölündülər. Onlardan biri Əli ibn Hüseynin imamətini qəbul etdi .Digər firqə imamətin Həsənin nəslinə aid olduğunu söylədi. Digər dəstə isə Hüseyndən (Allah ondan razı olsun) sonra imamətin kəsildiyinə etiqad etməyə başladı." (Növbəxti "Firaquş şia" səh. 152-153)

İmam Əbu Cəfər Muhəmməd ibn Əli əl Baqirin vəfatından sonra onun şiələri iki firqəyə bölündülər. Bir firqə onun oğlu Əbu Abdullah Cəfər ibn Muhəmmədi imam elan etdi, digər firqə isə Nəfsu Zəkiyyənin imamlığına etiqad etdi.

"Onlar iddia edirdilər ki, o, Qaim Mehdidir və o öldürülməyib." (Növbəxti "Firaquş şia" səh. 157)

"Cəfər Sadiqin vəfatından sonra onun şiələri 6 firqəyə bölündülər." ("Firaquş şia" səh. 160)

"Musa ibn Cəfərin vəfatından sonra şiələr 5 firqəyə bölündülər." ("Firaquş şia" səh. 169)

"Əli ibn Musanın vəfatından sonra şiələr fikir ayrılığına düşdülər və 5 firqəyə ayrıldılar." ("Firaquş şia" səh. 174)

“10-cu İmam Əli ibn Muhəmmədin ölümündən sonra şiələr iki firqəyə bölündülər. Onlardan bir firqə sağlığında ölmüş oğlu Muhəmmədin imamlığına etiqad edir və onun ölümünü inkar edirdi.” (“Firaquş şia” səh. 179)

Digər firqə isə müasir şiələrin 11-ci imamı Həsən ibn Əlinin imamlığına etiqad etdi.

”Həsən ibn Əlinin hicri 260-cı ildə vəfatından sonra şiələr ixtilafa düşdülər və 14 firqəyə ayrıldılar.” (“Firaquş şia” səh. 241)

Növbəxti yazır: “Onlardan, onun ölümünü inkar edən, ölümünü qəbul edən, onun Mehdi olduğunu iddia edən, ondan sonra onun qardaşı Cəfərin imam olduğunu deyən və s. bu kimi iddialarda olan firqələr yarandı. Atasının sağlığında ölmüş Muhəmməd ibn Əlinin imamlığına etiqad edənlər iddia edirdilər ki, atası Həsən əl Əsqəri və qardaşı Cəfər onlara aid olmayan məqama iddia etmişlər. Altıncı firqə iddia etdi ki, Həsən əl Əsqərinin onun sağlığında doğulmuş körpə oğlu var idi və o öldürülməsindən ehtiyat edərək qeybə çəkilmişdir. Yeddinci firqə iddia etdi ki, onun ölümündən 8 ay sonra doğulan övladı olmuşdur. Onlar Həsənin sağlığında oğlu olduğunu deyənləri yalanda ittiham etdilər. Digər firqə isə iddia etdi ki, onun oğlu olmamışdır, amma cariyəsinin hamiləliyi olmuşdur. O, doğulanda imam olacaqdır. Digər firqə Həsənin ölümünü və oğlunun olmamasını qəbul edib imamətin kəsilməsini Allahın qəzəbi kimi qəbul etdilər.” (“Firaquş şia” səh. 180-190)

Uca Allah necə də gözəl buyurub: “Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar.” (Nisa, 82)

Şiələrin imamət tarixi boyunca çoxsaylı firqələrə ayrılması və müxtəlif iddialarda olması 12 imam etiqadının sonradan yarandığına dair ən böyük arqumentdir. Şiələrin kitablarından olan səhih xəbərlərə görə də aydın olur ki, 12 imamın olduğu siyahı öncələr olmamışdır.

Şiələrin Buxarisi Muhəmməd ibn Yəqub əl Kuleyni “Kafi” (1/284) kitabında Əbu Nasirdən rəvayət edir ki, o İmam Rzadan soruşmuşdur: “İmam öləndə ondan sonra gələcək olan imam hansı əlamətlərə görə tanınır?” İmam dedi: “İmamın əlamətləri vardır. Birincisi, onun böyük qardaş olması, ikincisi, onun əfzəl olması və onda vəsiyyətin olması, insanlar gəlib kimə vəsiyyət olundu deyə soruşduqda deməsi ki,”filankəsə” Bizim silahımız Bəni İsrailin sandığı kimidir. Silah harada olur-olsun imamət ordadır.” (“Usul kafi”səh. 472)

Rəvayət Məclisinin “Miratul uqul”da (3/204) qeyd etdiyi kimi səhihdir.

İndi özümüzə sual verək. Əksər şiələr etiqad edirlər ki, Peyğəmbərdan (sallallahu aleyhi va səlləm) sonra məhz 12 İmam bu ümməti idarə etməlidir. Niyə görə İmam cavabında demir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) artıq İmamları təyin etmişdir, siyahı var və ona görə həqiqi İmamın kim olması bilinir.

Şiələrin İmam saydıqları şəxslərin öz təyinatlarından xəbərsiz olduqları barədə açıq dəlillər vardır. Kuleyni kitabında bütöv bir fəsili belə adlandırmışdır. **“İmam növbəti imamətin ona keçməsini necə bilir”**

Bu fəsildə Kuleyni Səffanın İmam Rzadan belə soruşduğunu nəql edir: ”Mənə izah et. İmam necə bilir ki, o İmamdır? Özündən əvvəlki imam ölüm anında olanda bunu bilir, yoxsa atan Əbul Həsən Bağdadda vəfat edəndə sən burda olduğun kimi bilinir?”

İmam dedi: “O, bunu ondan əvvəlki İmam ölüm anında olanda bilir.” Mən soruşdum: “bunu necə bilir?” İmam dedi: “Allah ona bildirir.” (“Usul əl kafi”c.1, səh. 663)

Rəvayət Behbudi və Məclisiyə görə səhihdir.” (“Miratul uqul” c.4, səh. 240)

Bu rəvayət kifayətdir ki,12 imamın Peyğəmbərin (sallallahu aleyhi va səlləm) zamanında ilahi təyinatı haqqında olan iddianın üstündən xətt çəkəsən. Aydın olur ki, hətta növbəti imam özündən əvvəlki imam ölüm ayağında olmadıqca bunu bilmir. Yəni, Həsən (Allah ondan razı olsun) atası ölüm anında olmadığı müddətcə özünün imam olduğunu bilmirdi. Beləcə, Həsən Əsqəriyə qədər bütün imamlar belə olublar. Əgər bunu İmamlar bilməyibsə, onda digər insanlar bunu necə bilə bilərdilər?

Hətta şiə imamların tanınmış səhabələri belə növbəti imamın və Mehdinin kim olmasını bilmirdilər. Əgər öncədən 11 İmamın olması və 12-ci imamın da Mehdi olması şiələr tərəfindən bilinsə idi, İmamların səhabələri onlardan növbəti imamlar və Mehdinin kim olması barədə soruşmazdılar.

Kuleyni “Kafi” (1/341) kitabında Əyyub ibn Nuhdan rəvayət edir ki, o İmam Rzaya dedi: “Mən ümid edirəm ki, siz bu işin sahibi (Mehdi) olacaqsız və Allah sizə bunu qılınca əl atmadan nəsib edəcəkdir.”

Behbudi və Məclisi rəvayəti səhih adlandırmışlar.

Əyyub ibn Nuh Şiə İmamlarının görkəmli səhabəsi olmuşdur. Şiə rical alimi Nəcaşi “Rical”(səh. 102, №54) kitabında yazır ki, bu səhabə İmam Əbul Həsən və İmam Əbu Muhəmmədin yanında böyük hörmətə sahib idi.

Beləliklə, buradan da görürük ki, böyük səhabə belə şiəlikdə Mehdinin kim olmasını bilmirdi və ümid edirdi ki, bu İmam Rza olacaqdır.

Həmçinin “İsa əl Həşşabdan rəvayət olunur ki, o, İmam Hüseyn ibn Əlidən onun Mehdi olub-olmaması barədə soruşmuşdu.” (Məclisi “Qeybət” “mə ravi fi zəlikə ən hasaneyn” fəsli №6)

“Əbu Həmzə əs Suməli də bu sualı İmam Əbu Abdullah Cəfər Sadiqə vermişdi” (“Kafi”c.1, səh. 341)

Bu sualı “Yunis ibn Əbdurrahmən də İmam Musa ibn Cəfərə vermişdi.” (Məclisi “Qeybət” “mə ravi ən Kazim fi zəlikə”fəsli №6)

“Əbduləzim Həsəni bu sualı İmam Cavada vermişdi və onun Mehdi olmasını ümid edirdi.” (həmin yer №4)

Şiə imamların ən görkəmli səhabəsi Zurarə ibn Əyun da növbəti imamın kim olmasını bilmirdi.

Bundan əlavə, şiəlikdə olan "İmamət" anlayışı imamın qeybdə olması məfhumunu qəbul etmir. Şiə üçün İmamət nə deməkdir? Onlar buna necə əhəmiyyət verirlər?

Muhəmməd Rza Müzəffər yazır: "Biz etiqad edirik ki, İmamət dini prinsiplərdən biridir ki, bunsuz müsəlmanın imanı tam olmaz"

Muhəmməd Rza Müzəffər yazır: "...İmamət Nübuvvət kimi Allahın nemətlərindəndir. Ona görə də, hər zaman İmam və rəhbər olmalıdır ki, insanları Peyğəmbər əvəzinə dünya və axirət işlərində yönləndirsin. Bu İmam Peyğəmbər kimi dünyanın rəhbəridir. O, hikmətlə cəmiyyəti idarə edir, ədaləti bərpa edir, zülmü və haqsızlığı aradan götürür. Beləliklə, İmamət nübuvvətin davamıdır." ("Əqidətul İmamiyyə" 4-cü fəsil, "İmamət fəsli"-imamət müşkülü)

İndi bu sitatları 12-ci İmamın hicri 260-cı ildən qeybdə,insanların gözündən uzaqda olması və ümməti ilə geniş əlaqəsinin olmaması faktı ilə tutuşduraq. İndi hicri 1432-ci ildir. Yəni 1200 ildən çoxdur ki, 12-ci imam ümməti və dünyanı idarə etmir. Bəs onun mahiyyəti nədədir? Əgər müsəlmanlar imama üz tutub, ondan cavab ala bilmirlərsə onun olmasının mənası nədir? Əgər o ümməti idarə etmirsə onun mahiyyəti nədir? Bu imam müsəlman ümməti üçün bu 1200 ildə nə edib? Bir konkret fakt varmı?

Qeyd etdiyimiz kimi, İmam Həsən Əsqərinin ölümündən sonra bəziləri iddia etdi ki, onun azyaşlı oğlu var və o mağarada qeybə çəkilib və o Qaim Mehdidir. Pur Seyydi Ağai kitabında yazır: "İmam bu uşaq barədə yaxınları və səhabələrindən başqa heç kəsə xəbər bildirməmişdi" ("Qeyb dövrünün tarixi" səh. 13)

Lakin bu iddia doğru ola bilməz. İmamın şiələrinin onun ölümündən sonra 14 firqəyə bölünməsi faktı bütün bu iddiaları alt-üst edir. Şiələr həmçinin bu balaca imamın anasının dəqiq kim olmasını da bilmirlər. Əllamə Baqir Şərif əl Kurəşi yazır: "Deyirlər ki, onun anasının adı Süzən, Reyhanə, Nərgiz, Saqil, Həmt və s. olmuşdur." ("İmam Mehdinin həyatı"-ingilis dilində, səh. 32)

Onlar həmçinin o qadının hansı nəsildən olmasını da bilmirlər.

Pur Seyydi Ağai kitabında yazır: "Nəql olunur ki, onun adı Malikə idi və o Rum padşahlarının nəslindən idi. Yenə nəql olunduğuna görə, o Sudandan idi. Rəvayətlər var ki, o zənci kəniz idi. ("Qeyb dövrünün tarixi" səh. 10)

Həmçinin şiələr arasında 12-ci İmamın nə zaman anadan olması haqqında da fikir ayrılığı vardır.

Hətta İmam Həsən Əsqərinin doğma qardaşı Cəfər onun qardaşının oğlu olduğunu inkar edirdi. O deyirdi: "Mənim qardaşımın oğlu yoxdur və mən onun yeganə varisiyəm." ("Qeyb dövrünün tarixi" səh. 114)

Sahibizzaman kitabının müəllifi Qummi yazır: “Çox güman ki, bu, şiələri İmamın doğma qardaşı Cəfərin içki içib mahnı oxuyan qadınlara qulaq asdıqlarını deməyə vadar etdi.” (“Sahibizzaman” səh 87; “Əndişey hadi” nəşr)

İmamın hamıdan gizli oğlunun olması fikri bəzilərinin ürəyincə oldu. Bəzi təşəbbüskar şəxslər tapıldı ki, İmamın naibləri olduğunu deyib, onun adından şiələrdən sədəqə və zəkatlar toplamağa başladılar.

Qeyd etmək lazımdır ki, onlar bu işdə öncüllər olmamışdılar. Şiə tarixçisi Növbəxti yazır: “İmam Musa ibn Cəfərin vəfatından sonra onun şiələri arasında “Bəşəriyyə” firqəsi yarandı. Onlar Kufədən olan Muhəmməd ibn Bəşirin tərəfdarları idilər. Bu firqə iddia edirdi ki, İmam Musa ölməyib və həbs olunmayıbdır. O sağdır, insanlardan gizlənir və o qaim Mehdidir. Öz qeybi zamanı o naibi olaraq Muhəmməd ibn Bəşiri təyin etmişdir. Ona işlərini həvalə etmiş və möhürünü ona vermişdir. İmam ona lazım olan hər şeyi öyrətmişdir.” (Növbəxti “Firaq uş şia” səh. 152-153)

12 İmamilərin də qeybdə olan imamlarının naibləri olmuşdur.

Əllamə Baqir Şərif əl Kurəşi yazır: “Naiblərin sayı dörddür. Birincisi, Osman ibn Səid Amridir ki, 12-ci İmamın naibliyini 260-267-ci illər arasında icra etmişdir. Onun ölümündən sonra oğlu Muhəmməd 12-ci İmamdan başsağlığı məktubu aldı və növbəti naib oldu.” (“İmam Mehdinin həyatı”səh. 193)

“Birinci naibin oğlu Muhəmməd 305-ci ilə kimi İmam üçün mal toplamağa davam edir.” (“İmam Mehdinin həyatı”səh. 194)

“Ölüm ayağında Muhəmməd ibn Osman Amri varis olaraq Əbul Qasim Hüseyn ibn Ruhu növbəti naib təyin etdi. 20 vəya 21 il ərzində Ruh İmam üçün şiələrdən pul topladı.” (“İmam Mehdinin həyatı”səh. 200)

Sonuncu naib və şiələrdən xüms toplayan naib Əli ibn Muhəmməd Samari oldu ki, 326-329-ci illər ərzində bu işi icra etdi. O öləndə özünə varis təyin etmədi. Onun, yəni sonuncu naibin ölümündən sonra şiə Mehdisinin kiçik qeyb müddəti sona çatdı və şiələrə görə “böyük qeybət” dövrü başladı. O dövrdən şiələr indiyədək 12-ci İmamın geri qayıdacağını gözləyirlər. Şiələr bu qeyb məsələsinə dair bir çox kitablar yazdılar. Bu kitablarda onlar öz Mehdiləri barədə çoxsaylı rəvayətlər nəql etdilər.

Şiələrin şeyxi Abbas əl Qummi “Sahibizzaman” kitabında Həsən Əsqərinin xanım qohumundan 12-ci İmamın anadan olması barədə maraqlı rəvayət nəql etmişdir.

“Həsən Əsqəri qadına bu gecə oğlunun anadan olması xəbərini verdikdə qadın dedi: “Bundan sonra mən Nərcisi öndən və arxadan müayinə etməyə başladım, amma heç bir hamiləlik əlaməti tapmadım. Mən qayıdıb İmama bunu bildirdim, o gülümsədi və dedi: “Səhərə yaxın onda hamiləlik əlamətləri yaranacaq. Onun yolu Musanın anasının yolu

kimidir.” Doğana qədər onda hamiləlik əlamətləri görsənmədi. Ona görə heç kəs onun hamiləliyi haqqında heç nə bilmədi. Çünki Firon Musanın axtarışı zamanı hamilə qadınların qarnını yarırdı. Bu məsələdə bu uşaq Musaya bərabərdir.”

Digər rəvayətdə isə Həsən Əsqəri qohum qadına onun hamiləlik əlaməti olmadan doğuş məsələsinə təəcüblənməsinə qarşılıq ona dedi: “Biz Peyğəmbərin varisləri (doğuş zamanı) ana bətnində deyil, beldə oluruq və ana bətnindən deyil, ayaqdan doğuluruq.”(“Sahibizzaman” səh. 14)

Aşağıdakı sətirdə müəllifin kitabına əlavə olaraq bu sitatları da əlavə etmək istərdim:

Kuleyni “Kafi” kitabında Muhəmməd ibn Yəhya və başqalarından belə rəvayyət edir: “Bu, Həsən əl Əsqəridir.Öz əcəli ilə və yatağında ölmüşdür. Öldüyü zaman, yanında Əmirul – möminin xidmətçilərindən və güvənilən adamlarından filankəs və filankəs, qazilərdən filankəs və filankəs, təbiblərdən filankəs və filankəs var idi. Sonra (Həsən əl-Əsqərinin) üzünü örtdülər və cənazəni qaldırdılar. Cənazə evin ortasından götürüb atasının dəfn edildiyi otağa basdırıldı. Dəfn etdikdən sonra bir müddət mirasın paylaşdırılmasına da ara verdilər. (Çünki) Hamilə olduğu zənn edilən cariyənin (Nərcisin) başında dayananlar, hələ də gözləməkdə idilər. Lakin cariyənin (Nərcisin) hamilə olmadığı bilindi. Onun hamilə olmadığını başa düşəndə, (Həsən əl-Əsqərinin) mirası anası və qardaşı arasında paylaşdırıldı.” (Müqayisə üçün Azərbaycan dilində, “Üsuli kafi” 1-ci cild, səh 900, hədis № 1323)

Şiələrin Əhli-beyt adlandırdığı məktəbin kitablarında səkkiz belə rəvayyətə rast gəlmək olar ki, Mehdi doğulmamışdır. Kiminsə bu məsələ ilə bağlı şübhəsi olsa şiələrin bu kitablarına müraciət edə bilər. (ət-Tusi “Əl-Qeybət”, səh, 74; Mufid “əl-İrşad” səh 345; əl Fədlə Təbərsi “Əlamül-vəra” səh, 380; əl-Qummi “əl-Məqalət vəl firəq” səh, 102)

Şiə Mehdisinin təsviri.

Aşağıda biz Muhəmməd Baqir Məclisinin “Kitab əl qeyb” (“Ənsarian” nəş. Qum) kitabından bir neçə sitatlar nəql edəcəyik.

Səh 138: “Onun rəngi ərəblərin rəngidir, bədəni isə Yəhudilərin bədəni kimidir.”

Səh 140: “O, iki qətər libası geyinəcək və Bəni İsrailə oxşayacaqdır.”

Mehdi barədə maraqlı keyfiyyətləri Numaninin “Qeyb” kitabında tapmaq olar. “Mehdinin təsviri və Quranda onun haqqında olan ayələr” fəslində Numani İmam Muhəmməd Baqirin sözünü nəql edir:

Hədis №3-də “Onun alnında işarə, üzündə isə xal vardır.”
Hədis №4-də isə yazır: “Onun geniş qarnı, alnında işarə və gözəl üzü vardır.”

Hədis № 5-də yenə alında olan işarəyə toxunulur.

Şiələr Mehdinin gəlişi üçün maraqlı şərtlər qoymuşlar. İbn Əbu Zeynəb ən Numani "əl Qeyb"(səh. 213-214) və Əbu Cəfər ət Tusi "əl Qeyb" (səh 438, №429) kitablarında İmam Hüseyndən rəvayət edirlər: "Siz gözlədiyiniz bu hadisə - bəzilərinizin sizlərdən olan bəzilərindən uzaqlaşıb bir-birini lənətləmədikcə, bir-birinin üzünə tüpürmədikcə və bir-birinin küfrü barədə şahidlik etmədikcə baş verməyəcəkdir."

http://gift2shias.files.wordpress.com/2011/01/1231235843.jpg

Şiələrə görə əsl Quran Mehdidədir

Məclisi yazır: "...Bizə şiələrdən və sünnilərdən varid olan xəbərlərə görə, Quranda nöqsan və təhrif olması hədisləri mütəvatirdir. Məntiq bizə deyir ki, əgər Quran Əhli Beytdən ayrılıb, insanlar arasında yayılıb və adi insanlar onu toplamağa cəhd ediblərsə, onun tam və həqiqətə uyğun şəkildə toplanması ehtimalı azdır. Nə olursa-olsun, Mehdi gələnə qədər insanlara vacibdir ki, müshəflərdə olanlarla işləsinlər və onları oxusunlar. Bu məsələ çoxsaylı xəbərlərlə sabitdir və mütavatirdir və Quranda naqisliyin olmasını təsdiq edir..." ("Miratul uqul" c.3, səh. 31)

Abbas əl Qummi "Sahibizzaman" kitabında yazır: "16-cı xüsusiyyət. Möminlərin Əmiri tərəfindən yazılan müshəf Sahibizzamanın yanında qorunmaqdadır. Peyğəmbərin (sallallahu aleyhi va səlləm) vəfatından sonra Əli (Allah ondan razı olsun) Quranı Peyğəmbərə (sallallahu aleyhi va səlləm) nazil olan şəkildə ayə və surələrin yerini dəyişdirmədən topladı. Bu işi tamamladıqdan sonra o bunu səhabələrə göstərdi, amma onlar bunu qəbul etmədilər. Ondan sonra Əli (Allah ondan razı olsun) bu müshəfi gizlətdi. Bu Quran indiyə kimi qorunur. Sahibizzaman bu Quranı çıxardacaq və insanlara bunu oxuyub, əməl etməyi əmr edəcəkdir. Bu Quran əldə olan Qurandan fərqli olduğuna görə orta və yaşlı insanlara bu Quranı əzbərləmək çox ağır gələcəkdir." ("Sahibizzaman"səh. 36)

Şiələrə görə Quran o Mehdidədir ki, "...Qaim insanlar içərisində öldürmək ilə hərəkət edəcəkdir. Özü ilə bərabər olan kitabda "öldürərək hərəkət etməklə əmr olundum" yazılmışdır. Heç kəsdən də tövbə etməsini istəməyəcəkdir." (Numani "Qeyb" fəsil 13, №14)

Mehdi "...yaralıları və qaçanları öldürəcəkdir." (həmin yer №14)

İmam Baqir Mehdi haqqında deyir: "Əgər insanlar bilsəydilər ki, Qaim (Mehdi) zühur etdikdə nələr törədib neçə-neçə insanları öldürəcək və o zaman onu (Mehdini) görmək istəməzdilər. İnsanlar onun haqqında deyəcəklər: O (Mehdi) Muhəmmədin ailəsindən deyil, əgər Məhəmmədin ailəsindən olsa idi o bağışlamağı bacarardı." (həmin yer №18; "Mizanul hikmət"səh. 87, №575)

Bu Quran o imamdadır ki, alnında işarə vardır. O, imamdadır ki, ”Tövrat əhlini Tövratla, İncil əhlini İncillə, Zəbur əhlini Zəburla, Quran əhlini isə Quranla hökm edəcəkdir.” (həmin yer №26)

“Mehdi gələndən sonra şiələr dünyanın sahibi və ağaları olacaqlar.” “Mizanul hikmət”səh. 87, №581)

“Nəql olunduğuna görə İmam səhabələri ilə 25 km məsafədən əlaqə saxlayacaq və onlar İmamı görüb, eşidəcəklər.” (“Sahibizzaman”səh. 39)

Quran o İmamdadır ki,onun səhabələri arasında dirildilmiş ölülər olacaqdır.

”Rəvayət olunur ki,bir dəstə ölmüş adam dirildilib İmamın ordusuna girəcəkdir. Musanın (aleyhis salam) qövmündən 27, mağara əhlindən 7, Yuşə ibn Nun və Peyğəmbərin (sallallahu aleyhi va səlləm) bəzi səhabələri onun ordusunda olacaqdır.” (“Sahibizzaman” səh.38)

“Mehdinin ordusu yeyib-içməyəcəkdir. Onlarda xüsusi daş olacaq ki, bu daşdan onlar istədiklərini alacaqlar.” (“Sahibizzaman”səh. 93)

“İmam Mehdiyə Allah tərəfindən xüsusi ildırım və doluları ilə bulud verilmişdir. İmam buluda binib,yerin və göyün yeddinci qatlarına gedə bilər.” (“Sahibuzzaman” səh. 40)

İbn Əbil Hədid əl Mutəzili “Şərhul Nəhcul Bəlağa” kitabında yazır: “İmamilərə gəldikdə isə onlar ölülərin yenidən qayıtmasına (racət) inanırlar. Onlar etiqad edirlər ki, Bəni Umeyyədən və bəzi digər adamlar fiziki görkəmləri ilə yenidən dirildilib qaytarılacaq və Qaim Mehdi onların ayaq və qollarını kəsəcək, gözlərini çıxardacaq və dara asacaqdır. O, beləliklə Muhəmməd (sallallahu aleyhi va səlləm) ailəsinin həm keçmiş,həm də gələcək düşmənlərindən qisas alacaqdır.”(Məclisinin nəqli ilə “Biharul ənvar”c.51, səh. 121)

Şiələr nəql edirlər ki, ”Mehdi gələndə Əbu Bəkr və Öməri qəbirdən çıxardıb, onları dara çəkəcəkdir.” (Məclisi “Biharul ənvar”c.53, səh. 1-36; “Mustədrək vəsail” 15/301)

Şiələr Mehdini inkar edən hər kəsi kafir hesab edirlər. Səfvan ibn Mihran rəvayət edir ki, İmam Sadiq buyurdu: “Bütün imamları qəbul edib Mehdini inkar edən, Muhəmmədi qəbul edib, digər peyğəmbərləri inkar edən kimidir.” (“Qeyb dövrünün tarixi” səh. 64)

Şiə Mehdisi barədə ayrıca kitab da yazmaq mümkündür. Lakin zənn edirəm ki, bu qədər məlumat yetərlidir. Azərbaycan dilində ətraflı məlumatı aşağıdakı linkdən almaq mümkündür.

http://www.2shared.com/file/G0PKUTrB/ilikd_Mehdi.html

Son söz

Allaha həmd olsun ki, quluna bu qısa çalışmanı bitirməyi və bəzi məqamları açıqlamağı nəsib etdi. Burada olan bütün doğrular Allahdan, səhvlər isə məndəndir. Uca Allahdan, bu

çalışmanı qulundan qəbul etməyi və məhşər günü əməl tərəzisində xeyirli işlər arasında sadalanmasını niyaz edirəm. Bütün iradlar, sual və təklifləri aşağıdakı elektron ünvana göndərə bilərsiz.

Efendi1403@googlemail.com